QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 244 (5964) **30 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## "Müşfiq" və "Zabrat" yarımstansiyaları istifadəyə verilib

*Prezident İlham Əliyev tədbirdə iştirak edib*



Səh 2

7

"İcbari tibbi sığorta 10 milyon vətəndaşı əhatə edəcək"



9

Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılır



12

Paşinyan Koçaryanla həbsxana kamerasını bölüşdürəcəkmi?



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 dekabr 2019-cu il

# “Müşfiq” və “Zabrat” yarımstansiyaları istifadəyə verilib

## *Prezident İlham Əliyev tədbirdə iştirak edib*

***Dekabrın 29-da Bakının Səbail rayonunun Badamdar qəsəbəsində “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 220/110/10 kilovoltluq “Müşfiq” və 110/35/10 kilovoltluq “Zabrat” yarımstansiyaları istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev yarımstansiyalarda görülən yenidənqurma işləri barədə dövlətimizin başçısına məlumat verdi.***



Bildirildi ki, 2018-ci ilin sentyabrından ölkəmizin enerji sistemində islahatların keyfiyyətcə yeni mərhələsinə start verilib, yerli və xarici mütəxəssislərin rəyi nəzərə alınmaqla 2018-2021-ci illəri əhatə edən mükəmməl Reabilitasiya Proqramı hazırlanaraq dərhal icrasına başlanılıb. Bu proqramın həyata keçirilməsində əsas məqsəd itirilmiş gücləri bərpa etmək, enerji sisteminin etibarlılığı və dayanıqlılığını təmin edib inkişafa nail olmaqla yanaşı, 800 meqavatdan artıq “itirilmiş” gücü bərpa etməkdir. Bu günə qədər 400 meqavat itirilmiş güc artıq bərpa olunub.



Diqqətə çatdırılıb ki, “Azərenerji” ASC 12 elektrik stansiyasında və sistem əhəmiyyətli 20-dək yarımstansiyada tikinti, yenidənqurma və bərpa işləri həyata keçirir. Ötən ildən başlayaraq mövcud 87 yarımstansiyadan ikisində yenidənqurma işləri artıq başa çatdırılıb, 20-dək yarımstansiyada isə bu tədbirlər davam edir. 220/110/10 kilovoltluq “Müşfiq” və 110/35/10 kilovoltluq “Zabrat” yarımstansiyaları da ən müasir standartlar səviyyəsində yenidən qurulub. Silsilə tədbirlər sayəsində “Müşfiq” və “Zabrat” yarımstansiyalarının dayanıqlılığı, etibarlılığı və təhlükəsizliyi təmin olunub. Prezident İlham Əliyev “Müşfiq” yarımstansiyasını işə saldı.

**Ardı Səh. 3**





# "Müşfiq" və "Zabrat" yarımstansiyaları istifadəyə verilib

## *Prezident İlham Əliyev tədbirdə iştirak edib*

Əvvəli Səh. 2

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən genişmiqyaslı islahatlar enerji sektorunu da hərtərəfli əhatə edib. Azərbaycanın elektrik enerjisi təsərrüfatında köklü islahatların növbəti mərhələsi uğurla reallaşdırılır, enerji sisteminin etibarlılığının təmin edilməsi və bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər geniş vüsət alıb. Son illərdə cəsidir ki, hazırda Azərbaycan öz daxili enerji tələbatını tam ödəməklə yanaşı, elektrik enerjisini ixrac da edir. Bu işlər ümumilikdə ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsinə xidmət etməklə, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlu nəticələrinin göstəricisi kimi də xarakterizə olunur. Respublikamızın elektroenergetika sistemi ötən müddətdə tanınmaz dərəcədə dəyişib və bütün yenidənqurma tədbirləri perspektiv də nəzərə alınmaqla reallaşdırılıb. Ardıcıl və





çoxsaylı yeni elektrik stansiyalarının və yarımstansiyaların açılışı, mövcudlarının bərpası ilə yanaşı, bərpaolunan enerjidən istifadəyə də geniş yer ayrılması istiqamətində çox mühüm layihələr icra olunub. Bütün bunlar göstərir ki, hazırda ölkəmizdə enerji sektorunun inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verilir. Görülən işlərin nəti məqsədyönlü səylər nəticəsində respublikamızın paytaxtı ilə yanaşı, regionlarında da qısa müddətdə böyük irəliləyişə nail olunub. Həmin tədbirlər elektrik enerjisi ilə təchizatın əsaslı şəkildə yaxşılaşdırılmasına, ən müasir texnologiya və avadanlıqların tətbiqinə, elektrik şəbəkələrində yüklənmələrin azalmasına və texniki itkilərin minimuma endirilməsinə imkan yaradıb. Ən ucqar yaşayış məntəqələrini belə əhatə edən yenidənqurma tədbirləri çərçivəsində yaradılan müasir energetika qurğuları və yeni güc mərkəzləri həm xarici görünüşünə görə əvvəlkilərdən kəskin fərqlənir, həm də böyük texniki üstünlüklərə malikdir. Ölkəmizin bütün bölgələrində qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, eləcə də sənayeləşmə diqqət mərkəzində olduğundan, energetika kompleksinin zamanın tələblərinə uyğun köklü şəkildə təkmilləşdirilməsi də başlıca prioritetlərdəndir.





Dövlətimizin başçısına 110/35/10 kilovoltluq "Zabrat" yarımstansiyasında aparılan yenidənqurma tədbirləri barədə də məlumat verildi.

Bildirildi ki, bu energetika qurğusunun gücü 160 meqavoltamperə çatdırılıb. Prezident İlham Əliyev "Müşfiq" yarımstansiyasından SCADA Dispetçer İdarəetmə Sistemi vasitəsilə "Zabrat" yarımstansiyasını da işə saldı.

Sonra dövlətimizin başçısına Azərbaycan elektroenergetika kompleksinin sistem olaraq formalaşmasının 120, paylayıcı elektrik şəbəkəsinin yaradılmasının 90 illiyinə həsr edilən "Azərbaycan elektroenergetikası" kitabı təqdim olundu. Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Pirşağıda avtomobil tunelinin açılışında iştirak edib




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən paytaxtın Sabunçu rayonunun Pirşağı qəsəbəsində inşa edilən avtomobil tunelinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.***



Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yol-nəqliyyat infrastrukturunda həyata keçirilən genişmiqyaslı işlər bu sahənin müasir səviyyəyə çatmasında böyük rol oynayıb. "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən paytaxtın Pirşağı qəsəbəsində avtomobil tunelinin inşası da bunu bir daha sübut edir. Bu, eyni zamanda, ölkəmizin hər yerində, o cümlədən paytaxtın yol və nəqliyyat sektorunun təkmilləşdirilməsi, yeni yolların salınması, mövcud yol təsərrüfatının ən müasir səviyyədə yenidən qurulması istiqamətində icra olunan vacib layihələrin ardıcıl xarakter aldığını göstərir. Bu layihələrin icrasından paytaxtla yanaşı, Bakıətrafı kənd və qəsəbələrdə yaşayan vətəndaşlar da bəhrələnirlər. Bütün bunlar dövlətimizin başçısının həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığının aydın təzahürüdür.



Yeni tunelin inşası qatarların və avtomobillərin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi ilə bərabər, tıxacların qarşısının alınması, sürücülərin və sərnişinlərin mənzil başına vaxtında və rahat çatması baxımından da mühüm rola malikdir. Abşeron dairəvi dəmir yolu xətti üzrə dəmir yolunun avtomobil yolu ilə eyni səviyyədə kəsişmələrində hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün ümumilikdə 15 avtomobil tuneli layihələndirilib. Bunlardan 7-si artıq istismara verilib, 7-də isə tikinti-quraşdırma işləri davam etdirilir. Pirşağı qəsəbəsində yerləşən bu tunel Bakı dairəvi avtomobil yolu ilə Abşeron dairəvi dəmir yolunun 28-ci kilometrliyində kəsişir. Tunelin qapalı hissəsinin uzunluğu 160, eni 31, hündürlüyü 6, ümumi uzunluğu isə 566 metrdir.

Dəmir yolu xəttinin avtomobil yolu ilə eyni səviyyədə kəsişmələrində bu cür tunellərin inşası çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu layihə qatarların sürətli, fasiləsiz və qrafikə uyğun hərəkətinin təmin edilməsində vacib rol oynayır. Bu, eyni zamanda, avtomobillərin də hərəkətinin intensivliyini təmin edir. Beləliklə, qatarlarla avtomobillərin hərəkəti bir-birinə mane olmadan təhlükəsiz həyata keçirilir. Sonra dövlətimizin başçısı tunelin rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.



## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Leyla Bədirbəylinin 100 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev T.Y.Rəfiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan müdafiə sənayesinin inkişafı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Tofiq Yusuf oğlu Rəfiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilir. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

***

Prezident İlham Əliyev "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi haqqında Əsasnamənin və Agentliyin strukturunun təsdiq edilməsi barədə" 2012-ci il 28 noyabr tarixli 752 nömrəli və "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 26 dekabr tarixli 794 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.



# 2019-cu il - Prezidentin xalqa bəxş etdiyi uğurlu tarix

*Prezident İlham Əliyev: "Bu inkişaf imkan verir ki, biz gələcək illərdə də öz addımlarımızı düzgün ataq və 2020-ci il də ölkəmiz üçün uğurlu olsun"*

***"Bu, bir real faktdır ki, hər il başa çatarkən növbəti ilə hansı uğurlarla qədəm qoyuruq" sualını qarşıya qoyuruq. Bu sualı cavablandırmaq üçün ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial, mədəni, demokratik islahatlar və xarici siyasət sahəsində qazandığı uğurları bir daha təhlil etmək zərurəti duyulur. Azərbaycanın tarixinə uğurlu il kimi daxil olan 2019-cu il uğurlu il kimi də estafeti 2020-ci ilə çox böyük nailiyyət və yeniliklərlə təhvil verməyə çox az vaxt qalıb. Xalqımız 2020-ci ilin də böyük sevinc və qələbələr ili kimi ilk gündən xeyirli, bərəkətli və işğal altında olan torpaqlarımızın azad olması ili kimi tarixə düşəcəyinə inanır. Qədəmlərin uğurlu olsun, 2020-ci il!***

Bu, gəlişigözəl söz deyil, real faktlara əsaslanan nəticələrdir. Çünki əsl siyasət konkret və real iş görməkdən ibarətdir. Son 16 il ərzində, Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar bir daha dövlət başçımızın daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini və gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Bugünkü uğurlar əsl siyasətin, görülən real işlərin məntiqi nəticəsidir ki, Azərbaycan inkişaf etmiş dünya ölkələri sırasında 45-ci yerdədir. "Bizim hamımızın vəzifəmizdir ki, ölkədə bu siyasəti davam etdirək, əldə olunan uğurları artıraq və hərtərəfli inkişaf üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu gözəl təməl üzərində müasir Azərbaycan yaradaq" deyən Cənab İlham Əliyev imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə və işləkliyinə nail olmuşdur.





Bəli, bu gün müstəqil Azərbaycan inkişafının ən qüdrətli dövrünü yaşayır. Məhz bu inkişaf bütün dünyaya örnək olan Prezident İlham Əliyev siyasətinin uğurlu nəticəsidir ki, GÜCLÜ DÖVLƏT-GÜCLÜ XALQ birliyi nəticəsində, getdikcə möhkəmlənir. Və hər bir vətəndaş da dövlət siyasətində xalq-iqtidar vəhdətinin uğurlu nəticəsinin şahidi olur.

Elə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində də bu uğurlu inkişafdan, regional və qlobal miqyasda Azərbaycanın atdığı addımlar və əldə edilən diplomatik nəticələrdən danışaraq, 2020-ci ilin də ölkəmiz üçün uğurlu il olacağını bildirib: "2019-cu il sona yaxınlaşır və əlbəttə ki, il ərzində görülmüş işlər, ölkəmizdə və regionda baş vermiş hadisələr çox ciddi təhlil tələb edir. Bir şeyi, tam dəqiqliklə deyə bilərəm ki, ölkəmiz üçün bu il uğurlu olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr həyatda öz əksini tapıb. Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib. Bu inkişaf imkan verir ki, biz gələcək illərdə də öz addımlarımızı düzgün ataq və 2020-ci il də ölkəmiz üçün uğurlu olsun".

## "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur"

Bəli, dövlət başçısı çıxışlarında dəfələrlə bu cavabı verib. Və ölkə başçısının bu cavabı Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi və iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən, ötən illərdə dünyada hökm sürən maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, ölkəmizdə sosial layihələr və iqtisadi islahatların icrası zəifləmədi, hətta əvvəlki sürətlə davam etdirildi. Bu gün ölkə Prezidentinin həyata keçirdiyi uğurlu sosial siyasəti bunu sübutudur. Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdan ibarətdir. Azərbaycanda da dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği cari il sentyabrın 1-dən 40 faizədək artırılaraq, 180 manatdan 250 manata çatdırılması Azərbaycan dövlətinin sosial siyasətinin növbəti uğuru olmaqla, ölkəmizdəki sosial inkişafın daha bir göstəricisidir.

Burada bir məqamı xüsusi qeyd etmək istərdik: həmin 950 min nəfərin heç də hamısı 250 manatdan aşağı əmək haqqı alanlar deyil və onların mühüm bir hissəsi maaşları 250 manatdan yuxarı olanlardır.

Beləliklə, Azərbaycan minimum əməkhaqqının səviyyəsinə görə təkcə qonşu yox, MDB-yə üzv ölkələrlə müqayisə edildikdə, alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə sahiblənmiş olacaq. Bu artım, digər tərəfdən, özəl sektora da böyük təsir göstərir. Çünki bu amil özəl sektorda da işçi qüvvəsinin rəqabət qabiliyyətini gücləndirir və əmək bazarına müsbət təsir edir. Minimum əməkhaqqının artırılması həm də Azərbaycanın makroiqtisadi və beynəlxalq göstəricilərinə müsbət təsir etməklə, birbaşa ölkəmizin inkişafına xidmət edir.

Bir sözlə, bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**RƏFİQƏ KAMALQIZI**

# “Formula-1” ölkəmizə turist axınını gücləndirir

*Prezident İlham Əliyev: “Tarixdə ilk dəfədir ki, Azərbaycana 3 milyondan çox turist səfər etmişdir”*



***Müstəqil dövlətimiz bu gün dünya məkanında beynəlxalq tədbirlərə ev sahibliyi edən bir ölkə kimi də tanınıb. Dövlət başçısı tərəfindən həyata keçirilən siyasi kursun məntiqi nəticəsidir ki, ölkəmizdə mövcud olan mühit, əmin-amanlıq və sabitlik bu tədbirlərin ölkəmizdə keçirilməsinə yol açmışdır.***

Azərbaycanın sosial-iqisadi inkişafı, islami dəyərlərin, islam mədəniyyət nümunələrinin mühafizəsi, islam həmrəylinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsinə töhfəsini verməsi, tolerant cəmiyyət olması və digər amillər beynəlxalq ictimaiyyətin ölkəmizə marağının artmasında əsas şərləndirici amillərdir. Azərbaycan beynəlxalq miqyaslı mötəbər yarışlara, qlobal forumlara, konfranslara, bir sözlə, nüfuzlu tədbirlərə ev sahibliyi edir və ölkəmizə olan etimadı doğruldur. Onu da, qeyd etmək vacibdir ki, ölkəmizdə təşkil olunan beynəlxalq tədbirlər Azərbaycanımızın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini nümayiş etdirir. Beynəlxalq səviyyəli tədbirlər sırasında “Formula-1” yarışlarını da qeyd etməliyik. Azərbaycan artıq bir neçə ildir ki, bu yarışlara yüksək səviyyədə ev sahibliyi edir və qarşıdakı illərdə də yarışların keçirilməsində, uğurlu bir məkan olaraq, imzasını atacaq. Təbii ki, keçirilən bu və ya digər tədbirlər turistlərin ölkəmizə axınını daha da gücləndirib. Bakıda keçirilən “Formula-1” Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeşin televiziya vasitəsilə izləməsi, təbii ki, ölkəmiz ətrafında olan münasibətləri formalaşdırır. Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı “Formula-1” yarışına gəldikdə, bu yarışın ölkəmiz üçün çox böyük faydası olduğunu bildirib: “Birincisi, “Formula-1” yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, “Formula-1” yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə”. Cənab Prezident birinci “Formula-1”-dən sonra Azərbaycana kütləvi turist axınının başladığını bildirib: “Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Mən bu tarixləri dəqiq xatırlayıram. Çünki hər ay, yaxud da ki, hər rüb mənə turistlərin gəlişi ilə bağlı məlumat verilib. Beləliklə, birinci yarış keçirildən sonra turistlərin sayı 24 faiz artmışdır. Ondan sonrakı il daha 22 faiz, ondan sonrakı il isə daha 5 faiz. Nəhayət, bu il, artıq on bir ayda 11 faiz artmışdır”.

Əlbəttə ki, “Formula-1” üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə edir. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanallarında yarışlar müntəzəm yayımlanır. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olur, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın və Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan reportaj və materiallar hazırlayırlar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmır. İnsanların televiziya vasitəsilə birbaşa izlədiyi yarışların keçirildiyi məkan şəhər halqası olduğundan, onlar təkcə avtomobilləri deyil, inkişaf etmiş Bakının gözəlliyini ətraflı görə bilirlər. Ölkəmizin zəngin mədəniyyəti, abidələri, tarixi şəhərimizin bənzərsizliyinə dəlalət edir ki, bu da, xarici turistlər üçün cəlbedicidir. “Tarixdə ilk dəfədir ki, Azərbaycana 3 milyondan çox turist səfər etmişdir” deyən Cənab Prezident bildirib ki, inkişaf etmiş ölkələrdə, xüsusilə, mənzərəli yerləri çox olan ölkələrdə turistlərin sayı on milyonlarla ölçülür və bundan çox böyük fayda görürlər. Dövlət başçısı qeyd edib ki, mən tapşırıq vermişəm, aidiyyəti qurumlar hesablayırlar ki, bu turistlər nə qədər pul xərcləyiblər: “Əlbəttə ki, biz bunu həm ödəmə kartları vasitəsilə dəqiq biləcəyik, eyni zamanda, ehtimal olunan pul sərfiyatını da, - bunun da hesablama metodologiyası var, - hər halda” bu, milyardlarla manat səviyyəsindədir. Budur, turistlərin gəlişinin ölkə iqtisadiyyatına verdiyi töhfə”.

Bakıda keçirilən bu yarış, ən yaxşı yarış hesab edilir. Bakı bütün iştirakçı və qonaqları, hər zaman olduğu kimi, növbəti tədbirdə də ev sahibi olaraq yüksək səviyyədə qarşılayaraq, yarışı uğurla yekunlaşdıracaq. Təbii ki, Bakıda pilotlar qeyri-adi ab-havası ilə seçilən, əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yarışırlar. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından, dəniz sahilindən keçməklə, azarkeşlərdə xoş ovqat yaratmış olur. Bakının gözəlliyi, tarixi məkanları və dinamik inkişafı bütün dünyaya nümayiş etdirilir. “Formula-1” yarışının Azərbaycanda keçirilməsinin daha üç il uzadılması 2023-cü ilədək Azərbaycanın Qran-Priyə uğurla ev sahibliyi etməsinin göstəricisidir.

Azərbaycan növbəti dəfə də “Formula-1” Azərbaycan Qran-Prisinə uğurla ev sahibliyi edəcək. Hər zaman olduğu kimi, yüksək təşkilatçılığı ilə öz sözünü deyəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***



# İordaniya mətbuatı Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı məqalə yayıb

***İordaniyanın “Petra” Dövlət İnformasiya Agentliyində, aparıcı “Əd-Dustur” qəzetində, eləcə də www.orobanews.com, www.nayrouz.com, www.ammonnews.net, www.nabd.com kimi geniş oxucu kütləsinə malik yerli xəbər portallarında 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı məqalə dərc edilib.***



Azərbaycan İordaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalədə Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi barədə ətraflı bəhs edilir, Azərbaycan xalqının milli birliyini təmin edən bu əlamətdar günün təşəbbüskarının məhz ümummilli lider Heydər Əliyev olduğu qeyd olunur. Bildirilir ki, hər il dekabrın 31-də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar bu bayramı təntənəli şəkildə qeyd edirlər.

Yazıda Azərbaycanın regional və beynəlxalq aləmdə böyük nüfuza malik, sürətlə inkişaf edən ölkə olduğu bildirilir. Qeyd edilir ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz qısa müddət ərzində dünyadakı mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib. Həmçinin Azərbaycanın 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin 155 ölkə tərəfindən dəstəkləndiyi, cari ildə Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 18-ci Zirvə Görüşünə ev sahibliyi etdiyi və bütün bu göstəricilərin beynəlxalq cəmiyyətin Azərbaycana olan ehtiram və etimadından irəli gəldiyi vurğulanır. Məqalədə, eyni zamanda, Azərbaycan-İordaniya əlaqələrindən bəhs olunur. Diqqətə çatdırılır ki, İordaniya Haşimilər Krallığının Kralı II Abdullahın bu yaxınlarda Azərbaycana səfəri iki qardaş ölkə arasında mövcud əməkdaşlığın inkişafı istiqamətində böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, Azərbaycan Hökumətinin Haşimilər Krallığının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı tutduğu ədalətli mövqeyini yüksək dəyərləndirdiyi vurğulanır.




# Ukraynanın lb.ua portalında Azərbaycanın uğurlu xarici siyasətinə dair məqalə dərc edilib

Ukraynanın tanınmış lb.ua portalında ölkəmizin səfiri Azər Xudiyevin “Azərbaycanın xarici siyasətində yeni strateji element: 2019 təcrübəsi” sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasətdən bəhs edilib, 2019-cu ildə Azərbaycan ilə Ukrayna arasında əməkdaşlığın inkişafı istiqamətində atılan addımlar qeyd olunub.

“Azərbaycan regional və qlobal siyasətini ardıcıl siyasi və məntiqi prinsiplər əsasında həyata keçirdi. Bu siyasətin əsas məqsədi hazırkı geosiyasi vəziyyətin əsas amillərinə diqqət yönəldərək regional və qlobal siyasətlərin birləşdirilməsidir. Belə bir siyasi xəttin əsas tezisi regional əməkdaşlığın inkişafıdır. Azərbaycan Prezidenti bu məqsədə çatmaq üçün bir mexanizm yaratdı: regional səviyyədə ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının qlobal miqyasda çoxtərəfli əməkdaşlıq formatları ilə birləşməsi. Bu metod 2019-cu ildə praktiki cəhətdən effektivliyini sübut etdi”, - deyə məqalədə vurğulanıb. Müəllif Azərbaycanın mühüm beynəlxalq tədbirlərin təşkil olunduğu platformaya çevrildiyini qeyd edərək 2019-cu ildə də ölkəmizdə bir sıra mötəbər tədbirlərin keçirildiyini bildirib.

# Dövlət başçısının mühüm məqsədi xalqa xidmət etmək reallığı üzərində qurulub!

## *Prezident İlham Əliyev: "Yol olan yerdə həyat var, inkişaf var, ticarət var, rahatlıq var"*





***Azərbaycanın istər mərkəzində, istərsə də bölgələrində yol-tikinti işləri, ümumiyyətlə, yol infrastukturu ən yüksək səviyyədə aparılır. Prezident İlham Əliyevin bu istiqamətdə verdiyi tapşırıqlar, eləcə də, reallaşdırılan nəhəng layihələr, nəinki vətəndaşların və ölkəmizə gələn qonaqlarının gediş-gəlişlərini komfortlaşdırır, həmçinin, bu sahədə iqtisadi imkanlar daha da münbitləşdirilir. Məhz bu baxımdan, Cənab İlham Əliyevin Bakı-Quba-Rusiya Fderasiyası dövlət sərhədi yeni avtomobil yolunun açılışında irəli sürdüyü fikirləri özündə bir sıra əhəmiyyətli məqamları ehtiva etməkdədir.***

### Prezident: "Əminəm ki, gələcəkdə bu zonada turizm imkanı da dəyərləndiriləcək və investisiya qoyuluşu da nəzərdə tutulacaq"

Digər tərəfdən, yeni yolun açılışı zamanı dövlət başçımız qeyd etdi ki, istifadəyə verilən yolun tikintisinə böyük ehtiyac var və indi Rusiya ilə ticarət dövriyyəmiz artır, həm də Azərbaycan tranzit ölkə kimi öz imkanlarını ortaya qoyur. SİTAT: "İrandan Rusiyaya, Rusiyadan İrana yükdaşımalarının həcmi artır. Belə olan halda, əlbəttə ki, bizim yol infrastrukturu artan yükləri daşımaq üçün yeni imkanlara malik olmalıdır. Eyni zamanda, sərnişinlər üçün də çox gözəl imkanlar yaradılacaq".

Yolların inkişafı, eyni zamanda, təhlükəsizlik baxımından da, təmin olunmalıdır ki, məhz bu məsələ də Prezident İlham Əliyev tərəfindən vurğulanıb. Həmçinin, turizm potensialından maksimum qaydada istifadə etmək imkanları da nəzərə alınıb ki, dövlətimizin başçısı bu barədə tövsiyələrini keçib: "Çox təhlükəsiz bir yol olacaq və eyni zamanda, şimal rayonlarımızda da bu yoldan istifadə edənlərin sayı artacaq. O cümlədən, Şahdağ Qış Xizək Kurortuna, Qubanın mənzərəli yerlərinə getmək üçün həm xarici, həm yerli turistlər, həm də rayon sakinləri bu yoldan istifadə edəcəklər. Eyni zamanda, bu, çox mənzərəli yol olacaq, çünki sahilboyu gedəcək. Əminəm ki, gələcəkdə bu zonada turizm imkanı da dəyərləndiriləcək və investisiya qoyuluşu da nəzərdə tutulacaq. Yol olan yerdə həyat var, inkişaf var, ticarət var, rahatlıq var".

daha bir əsas məqam budur ki, ölkə rəhbərimizin başlatdığı və sürətlə həyata keçirdiyi çoxşaxəli islahatlar həm də yerlərdə fəaliyyət göstərən rayon rəhbərliklərinin də işlərinə, müsbət mənada, təsirlərini göstərib. Əsasən, bu və ya digər proseslərdə - yol tikintilərində, inşaat strukturlarında özbaşınalıqların, korrupsiya və rüşvətxorluğun aradan qaldırılması yönündə Prezident İlham Əliyev tərəfindən göstərilən qətiyyət, həmçinin, bu siyasətin xalq tərəfindən, birmənalı şəkildə dəstəklənməsi faktı da, necə deyərlər, canlanmaya səbəb olub. Dövlət başçımızın iradlarından nəticələrin çıxarılması da artıq ölkəmizdə yeni nəfəsin VƏ yeni eranın başlanğıcı olaraq qiymətləndirilir.

### Ölkə başçısı: " Çünki mən sizə irad tutmuşam"

Yeri gəlmişkən, adıçəkilən yolun açılışı zamanı dövlət başçımız bu barədə bildirİb ki, indi gərək yol boyu bütün texniki parametrlər gözlənilsin, yolları ikiyə ayıran yerlər də müasir səviyyədə olmalıdır. "Çünki mən sizə irad tutmuşam, bəzi yollarda daralma var, böyümə var. Ona görə onlar yolda təhlükə yarada bilər. Burada ayırıcı bir xətt olmalıdır" deyə vurğulayan ölkə rəhbərimiz bu kimi məsələlərin həll olunması üçün iradlarının nəticə verdiyini xatırladıb.

Beləliklə, həm də belə nəticəyə gələ bilərik ki, Azərbaycanın bütün regionlarında, bölgələrində aparılan islahatlar öz bəhrələrini verməkdədir və bütün bunlardan yararlanan faktor isə xalq amilidir. Daha dəqiq desək, Prezident İlham Əliyev Cənablarının mühüm məqsəsi xalqa xidmət etmək reallığı üzərində qurulub!

***Rövşən RƏSULOV***

# "İcbari tibbi sığorta 10 milyon vətəndaşı əhatə edəcək"

*Nazirlər Kabinetində icbari tibbi sığortanın ölkə üzrə mərhələli tətbiqi ilə bağlı müşavirə keçirilib*



2020-ci il yanvarın 1-dən etibarən ölkəmizdə mərhələli şəkildə yeni icbari tibbi sığorta sisteminin tətbiqi həyata keçiriləcək. AZƏRTAC xəbər verir ki, bu sahədə indiyə qədər görülən işlər və gələn ildən icbari tibbi sığortanın ölkə üzrə mərhələli tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun sədrliyi ilə müşavirə keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ildən başlayaraq icbari tibbi sığorta sahəsində bir sıra vacib fərman və sərəncamlar imzalayıb. Müşavirədə çıxış edən Baş Nazir Əli Əsədov deyib ki, 2017-ci ildən etibarən isə ölkəmizdə icbari tibbi sığortanın pilot layihə şəklində tətbiqinə başlanılıb. Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında həyata keçirilən icbari tibbi sığorta çərçivəsində 370 min nəfərə yaxın sığortaolunan baza zərfi əsasında ödənişsiz tibbi xidmətlərlə təmin edilib. Bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə tətbiq edilən icbari tibbi sığortanın ölkəmizdə həyata keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin verdiyi qərar dövlət siyasətinin mərkəzində insan amilinin durduğunun bir daha sübut etdi. 2020-ci il yanvarın 1-də qüvvəyə minəcək qanuna əsasən əhalinin sığortalanmasına dövlət tərəfindən adambaşına 90 manat olmaqla 900 milyon manat vəsait ayrılacaq. Bu, dövlət tərəfindən aparılan sosialyönümlü islahatın və əhaliyə göstərilən qayğının bariz nümunəsidir.

Bildirilib ki, icbari tibbi sığorta 10 milyon vətəndaşı əhatə edəcək. İcbari tibbi sığortanın tətbiqi mərhələli şəkildə baş tutacaq. Belə ki, yanvarın 1-dən Naxçıvan MR-in ərazisində və 23 regionda, aprelin 1-dən 20 regionda, iyulun 1-dən 15 regionda və oktyabrın 1-dən isə Bakı, Sumqayıt, Abşeronda tətbiq olunacaq. Beləliklə, 2020-ci ilin sonuna qədər Azərbaycanın bütün bölgələrində əhali icbari tibbi sığorta sisteminə qoşulacaq.

# Rövnəq Abdullayev: "Azəri-Çıraq-Günəşli" yataqlarında indiyə qədər olan ümumi neft hasilatı artıq 500 mln. tona çatdırılıb



"Azəri-Çıraq-Günəşli" yataqlarında indiyə qədər olan ümumi neft hasilatı artıq 500 mln. tona çatdırılıb. Trend-in məlumatına görə, bunu bu gün SOCAR-da ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş tədbirdə şirkətin prezidenti Rövnəq Abdullayev bildirib.

SOCAR-ın prezidenti 2019-cu ilin nəticələri barədə söz açıb, il ərzində şirkətin Azərbaycanda və ölkə xaricində TANAP qaz boru kəməri, "SOCAR Polymer", Karbamid zavodu kimi uğurla başa çatdırdığı layihələrdən bəhs edib.

O, qarşıdakı illərdə şirkətin perspektivləri üzərində ətraflı dayanıb, SOCAR-ın Azərbaycanda geniş vüsət alan sosial-iqtisadi inkişaf proseslərində yaxından iştirak etdiyini bildirib: "Möhtərəm Prezidentimizin rəhbərliyi altında ölkə həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatlar kursu SOCAR-ın qarşısında yeni üfüqlər açır. Biznes dayanıqlığının artırılması, istehsal proseslərinin rəqəmsallaşdırılması qarşımızda duran başlıca vəzifələrdən biridir. SOCAR daim zamanın tələblərinə cavab vermiş şirkət olub və bu gün də belədir. Biz yaxşı başa düşürük ki, bu gün rəqəmsallaşmada uğur qazana bilməyən şirkətlər 10-15 ildən sonra bazarı tərk etmək məcburiyyətində qalacaq. Biz şirkətin əmək effektivliyini işçi sayını çoxaltmaqla yox, texnoloji güc ilə artırmaq niyyətindəyik. Bu gün geniş yayılmış peşələrin çoxu yaxın gələcəkdə tarixə qovuşacaq, rəqəmsallaşma dövrünün yeni peşələri yaranacaq. Şirkətimizin kadr hazırlığı siyasətində bu məsələlər də nəzərə alınmaqdadır". Tədbirdə SOCAR rəhbərliyinin təmsilçiləri, idarə və müəssisələrin rəhbərləri, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin 20 sentyabr "Neftçilər günü" və "Neft Daşları"nın 70 illiyi ərəfəsində imzaladığı Sərəncamlara əsasən, təltif edilmiş neftçilərin bir qrupu iştirak ediblər.Tədbirdə neftçilərin Milli Həmrəylik Günü və Yeni İl bayramları münasibəti ilə Azərbaycan xalqına təbrik və müraciətlərini əks etdirən videoçarx nümayiş olunub.

Azərbaycan Prezidentinin müvafiq Sərəncamları oxunub. "Tərəqqi" medalı, 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuş və "Fəxri neftçi" adına layiq görülmüş neftçilərə ali dövlət təltifləri təqdim olunub.

Təltif olunanlar adından çıxış edənlər, layiq görüldükləri dövlət mükafatlarını bütün Azəbaycan neftçilərinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirdiklərini söyləyib, Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirib, onlara göstərilən etimadı bundan sonra da doğruldacaqlarını vurğulayıblar. Tədbirin sonunda SOCAR-ın birinci vitse-prezidenti Akademik Xoşbəxt Yusifzadə Azərbaycan neftçilərini qarşıdan gələn bayram münasibəti ilə təbrik edib. Ölkə başçısı İlham Əliyevin SOCAR-dakı fəaliyyətini xatırladaraq, onun daim neftçilərin dostu olduğunu vurğulayıb.

# Bu günə qədər 1808 nəfər namizədlik üçün MSK-ya müraciət edib

Azərbaycanda fevralın 9-a təyin edilmş parlament seçkilərində iştirak etmək üçün indiyə qədər 1808 namizəd müraciət edib. SİA-nın verdiyi məlumata görə, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MSK-nın dünən keçirilən iclasında deyib. MSK sədri bildirib ki, namizədlərin 350 nəfəri 18 siyasi partiya tərəfindən, 11 nəfəri təşəbbüs qrupları, 1447 nəfər fərdi qaydada namizədliyini irəli sürüb. M.Pənahov bildirib ki, həmin müraciət edən şəxslərinin 1348 nəfərinin namizədliyi artıq təsdiq olunub. Onlardan 1142 nəfəri isə imza vərəqələrin artıq götürüb. 159 nəfəri imza vərəqələrin doldurараq geri qaytarıb və onlardan 27 nəfər qeydə alınıb. 74 nəfər isə özləri seçkilərdə iştiraklarını dayandırıb.

# Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan 2019-cu ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə edib

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

***-Mübariz müəllim, 2019-cu il artıq başa çatmaq üzrədir. Sizcə, bu il sosial-iqtisadi inkişaf baxımından Azərbaycan üçün hansı uğurlarla yadda qaldı?***

- Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz 2019-cu ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etdi, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi. Cari ilin əvvəlindən sosial istiqamətdə böyük addımlar atılmağa başladı. Fevralda ilk böyük sosial paket qəbul edildi və martın 1-dən minimum əməkhaqqı, minimum pensiyalarda ciddi artımlar oldu, bütün müavinətlər artırıldı, yeni müavinət növlərinin tətbiqinə başlanıldı, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işçilərin maaşları artırıldı. İlin ortasında ikinci sosial paketin qəbulu haqqında da sərəncam verildi ki, sentyabrdan qüvvəyə minən dəyişikliyə əsasən, pensiya, maaşlar yenidən artdı. Nəticədə minimum əməkhaqqı il ərzində artırılaraq 250 manata, minimum pensiya isə 200 manata çatdı. Bundan başqa, ayrı-ayrı sahələrdə əməkhaqqlarında növbəti addımlar həyata keçirildi.Hələ indiyə qədər Azərbaycanda bir ilin ərzində əməkhaqqı və pensiyaların bu qədər artırılması, iki sosial paketin həyata keçirilməsi faktına rast gəlinməmişdi. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yolla irəliləyir. Bunun ən başlıca səbəbi Azərbaycanda həyata keçirilən siyasətin xalqın mənafeyini tam ifadə etməsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması istiqamətində qətiyyətli siyasət davam etdirilir. Ölkəmizdə bütün sahələr üzrə yüksək inkişaf əldə olunub, əhalinin rifah halı yüksəlib, regionların siması əhəmiyyətli dərəcədə dəyişib və bu dəyişiklik hər bir vətəndaşımızın həyatına müsbət təsir göstərib.

Bu gün Azərbaycan dünyanın iqtisadi cəhətdən ən dinamik inkişaf edən ölkəsi imicini qazanıb. Azərbaycan bu gün həm regionda, həm də beynəlxalq müstəvidə öz yeri, rolu və xüsusi çəkisi olan ölkədir. Respublikamızın beynəlxalq təşkilatlarda da nüfuzu çox yüksəkdir, Azərbaycan 2019-cu ildən etibarən Qoşulmama Hərəkatına sədrlik edir, bu, ölkəmizin çox mühüm diplomatik nailiyyətidir. Azərbaycanın beynəlxalq müstəvidə əməkdaşlıq və təhlükəsizliyi



verdiyi fundamental töhfələrdən bəhs edərkən ölkəmizin iqtisadi baxımdan bölgədə həlledici rola malik olduğunu xüsusi vurğulamaq lazımdır. Bunun əyani ifadəsi kimi ölkəmizin təşəbbüsü və liderliyi ilə reallaşdırılan qlobal xarakterli layihələrin nəticələrini göstərmək olar.

***-Bu il Azərbaycanda Prezident İlham Əliyev tərəfindən genişmiqyaslı islahatlar həyata keçirildi. Bu islahatlar ölkəmizin perspektiv inkişafı üçün nələr vəd edir?***

- Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla yanaşı, ölkəmizdə zamanın çağırışlarına uyğun olaraq genişmiqyaslı islahatlar həyata keçirilir, ölkəmizin qüdrətinin daha da artmasına xidmət edən mühüm addımlar atılır. Son zamanlar Prezident İlham Əliyevin imzaladığı Fərman və sərəncamlara uyğun olaraq həyata keçirilən tədbirlər sosial, iqtisadi və digər sahələri əhatə edən islahatların davamlı xarakter daşıdığını göstərir. Yeni bütün bu tədbirlər uzunmüddətli islahatlar paketinin tərkib hissəsidir. Vətəndaşların rifahını başlıca vəzifəsi hesab edən Prezident İlham Əliyev onların sosial, iqtisadi əmin-amanlıqlarını qorumağa çalışan bir sistem yaratmaq məqsədinə nail olmaq üçün cəmiyyətin bütün sferalarında ciddi islahatlar aparır.

Son günlərini yaşadığımız il Prezidentimiz tərəfindən həyata keçirilən struktur və kadr islahatları ilə yadda qaldı. İdarəetmədə səmərəliliyi artırmaq məqsədilə islahatlar bu sahəni də əhatə etdi. Dövlət başçısı tərəfindən qarşıya qoyulan iqtisadi, sosial məsələlərə nail olmaq məqsədilə idarəetmə sahəsində də yeni yanaşmanın tətbiqi vacib sayılırdı. Ona görə də, islahatların davamı kimi 2019-cu ildə struktur islahatları da dərinləşdi, kadr dəyişikliklərinə başlandı. Bu gün Azərbaycanda geniş və çoxşaxəli islahatlar proqramı Prezidentimiz, partiyamızın Sədri cənab İlham Əliyev tərəfindən çox böyük uğurla həyata keçirilir. Bu siyasət xalqın mütləq əksəriyyəti tərəfindən birmənalı şəkildə müdafiə olunur.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət idarəçiliyi, daxili və xarici siyasət kursu Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında çox böyük uğurla davam edir. Sosial iqtisadi inkişaf strategiyası, iqtisadiyyatın dinamik inkişafı, əhalinin rifahının daha da yaxşılaşdırılması siyasətinin bundan sonra da effektiv transformasiyasını, həyata keçirilməsi daha geniş hədəflərinin müəyyənləşməsini və daha dərin islahatların aparılmasını zərurətə çevirir.

***-2019-cu il, eyni zamanda, Azərbaycanın beynəlxalq müstəvidə bir sıra uğurları ilə yadda qaldı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərakatının növbəti Zirvə görüşlərinin Bakıda keçirilməsi, TANAP-ın Avropaya birləşən hissəsinin açılış mərasimi və s. buna misaldır. Bütövlükdə, bu hadisələrin önəmi haqqında fikirlərinizi bilmək istərdik...***

- Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri dünyada sülhün və təhlükəsizliyin təmin olunmasıdır. Odur ki, Prezident İlham Əliyev düşünülmüş, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Prezident İlham Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində də keçən dövr ərzində Azərbaycan regional və qlobal əhəmiyyətli iqtisadi, siyasi və humanitar layihələrin mərkəzinə çevrilib, bir sıra əhəmiyyətli əməkdaşlıq formatlarının təşəbbüskarı olub.

2019-cu il Azərbaycan üçün beynəlxalq təşkilatlar və regional təşkilatlarla əməkdaşlıq baxımından da uğurlu il olub. Azərbaycanın BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, QDİƏT, GUAM, Türkdilli Dövlətlərlə Əməkdaşlıq Şurası, Şanxay Əməkdaşlıq Təşkilatı və sair təşkilatlarla sıx əməkdaşlıq edib.

Dövlət başçısının da çıxışlarında qeyd etdiyi kimi 2019-cu il xarici siyasət sahəsində də böyük uğurlar əldə edilib. Ənənəvi tərəfdaş ölkələrlə əlaqələr yüksək pilləyə qalxıb, qonşu ölkələrlə bir çox birgə təşəbbüslər irəli sürülüb, bir çox önəmli razılaşmalar əldə edilib. Ötən il ölkəmiz bir çox önəmli beynəlxalq tədbirlərə ev sahibliyi edib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçirilib ki, bildiyiniz kimi Azərbaycan bu təşkilatda çox fəal rol oynayır və təşkilata sədrlik 1 illik Azərbaycana keçib. Həmçinin, ölkəmiz bu il çox mühüm bir tədbirin təşkilatçılığına öz layiqli imzasını atıb. Qoşulmama Hərəkatının Zirvə Görüşü Azərbaycanda keçirilib. Azərbaycan BMT-dən sonra ikinci böyük beynəlxalq təsisata 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində sədrlik edəcək. Bu ölkəmiz üçün çox böyük uğurdur. Bu onu göstərir ki, Azərbaycana çox böyük hörmət və böyük rəğbət var. Azərbaycan qarşıdakı 3 il ərzində belə bir mötəbər təşkilata rəhbərlik etdiyi müddətdə üzv ölkələrlə ikitərəfli əlaqələrinin möhkəmləndirilməsi ilə yanaşı əsas problem olan Qarabağ münaqişəsinin həlli istiqamətində də tam dəstəyinin əldə edilməsinə çalışacaq. Artıq Qoşulmama Hərəkatına üzv ölkələr Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini birmənalı şəkildə müdafiə edərək, münaqişənin ancaq ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq prinsiplərinə əsasən həllini dəstəkləyirlər. Hərəkat bu mövqeyini Bakıda keçirilən növbəti Sammitində bir daha bəyan edib.

Bu il eyni zamanda, Türkiyənin Ədirnə vilayətində TANAP layihəsinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi baş tutdu. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən biri və Avropanın enerji təhlükəsizliyində mühüm amil olan TANAP - Transanadolu qaz boru xətti layihəsi çox mühüm beynəlxalq iqtisadi əhəmiyyət kəsb edir. Bu çərçivədə Azərbaycan qazının nəqlinə başlanması Avropaya mavi yanacağın tədarükünün şaxələndirilməsinə imkan yaradacaq, Azərbaycanın enerji təhlükəsizliyini daha da gücləndirəcək, eyni zamanda bölgənin beynəlxalq enerji bazarına daha da inteqrasiyasını təmin edəcək.

Ümumilikdə, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu həmişə öz dinamikliyi, intensivliyi və çevikliyi ilə xarakterizə olunub və daim milli maraqlara söykənib.Yürüdülən siyasət nəticəsində Bakı dünyanın dialoq mərkəzlərindən birinə çevrilib. Davamlı olaraq Azərbaycanda dünyanı narahat edən müxtəlif humanitar problemlərin həlli istiqamətində beynəlxalq səviyyəli toplantılar keçirilərək müzakirə olunur.

***-Azərbaycan bütün dünyada sivilizasiyalararası, dinlərarası dialoq məkanı və mərkəzi kimi tanınır. Bu istiqamətdə cari ildə də ölkəmizdə mühüm beynəlxalq tədbirlər keçirilib. Azərbaycanın tolerantlıq məkanı kimi beynəlxalq müstəvidə artan nüfuzu barədə nə deyə bilərsiniz?***

- Qeyd edim ki, mədəniyyətlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanda multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, ən əsası dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Son illər respublikamız Prezident İlham Əliyevin birbaşa öz təşəbbüsü və iştirakı ilə çoxlu sayda sivilizasiyalararası dialoqa əlaqədar beynəlxalq tədbirlərin keçirildiyi unikal məkana çevrilib. Azərbaycan son on ildə bu sahədə onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlar düzənləyib, beynəlxalq qurumların toplantılarına ev sahibliyi edib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi belə mötəbər tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın qədim dinlərarası ənənələrindən irəli gəlir: "Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün ad-

# Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan 2019-cu ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə edib

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

dımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır..."

Beynəlxalq tədbirlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi heç də təsadüfi deyil. Bu hər şeydən əvvəl, Prezident İlham Əliyevin apardığı müdrik siyasət nəticəsində Azərbaycanın beynəlxalq imicinin artması ilə bağlıdır. Bu məsələdə dünyada cərəyan edən hadisələr fonunda ölkəmizdə hökm sürən sabitlik də mühüm rol oynayır. Fəxrlə deyə bilərik ki, bu gün beynəlxalq aləmdə Bakı şəhəri ilə bağlı iki ifadə tez-tez işlədilir: mədəniyyətlərarası dialoq üzrə Bakı prosesi və tolerantlığın təşviqi üzrə Bakı prosesi. Bakıda toplaşıb bəşəriyyətin qarşısında duran bu və ya digər problemlə bağlı fikir mübadiləsi aparmaq imkanı qazandıran beynəlxalq tədbirlərlə əlaqədar gələn qonaqlar ölkəmizlə əyani tanış olur və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında vasitəçilik edirlər.

***-Mübariz müəllim, 2019-cu il Yeni Azərbaycan Partiyası üçün hansı uğurlarla yadda qaldı?***

-Azərbaycan Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dinamik inkişaf edir, mütəmadi olaraq çox mühüm nailiyyətlər əldə edir. Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu, Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası da Azərbaycanın inkişafına öz layiqli töhfəsini verir. Ümumiyyətlə, YAP öz fəaliyyətini Heydər Əliyev ideyaları əsasında davam etdirir, Heydər Əliyev yolu ilə irəliləyir. Prezidentin siyasətinin həyata keçirilməsi və təbliğində aparıcı - avanqard rol Yeni Azərbaycan Partiyasına məxsusdur.

Prezidentimiz İlham Əliyev cəmiyyətin sosial-psixoloji impulslarını dəqiqliklə müşahidə edir, ölkədəki ictimai-siyasi durumu düzgün araşdırır, əhalinin mənəvi ovqatını, daim yenilənən baxış və gözləntilərini aydın müəyyənləşdirir. Bunlara əsasən də strateji hədəflərini, taktiki gedişlərini, idarəçilik aparatını davamlı təkmilləşdirir və Azərbaycanda misli görünməmiş dəyişikliklərə müəlliflik edir. Prezidentin vizyonu 10-30 il sonrakı Azərbaycanının soisal-iqtisadi, ictimai-siyasi mənzərəsini formalaşdırır. Liderin bu vizyonu - gələcəyə baxış konsepti çoxşaxəli olduğu qədər də konkret və məqsədyönlüdür. Özü də yalnız iqtisadi, siyasi aspektdə deyil, məğzində milli dəyərlər sistemi olan geniş mənəvi spektri əhatə edir. Cənab İlham Əliyev zamanın nəbzini tutur və Azərbaycanı bu impulslara zərər çəkilmədən kökləyir. Həm dövlətini və xalqını müasir meyillərə böyük sürətlə yönləndirir, həm də elə bu dinamizmlə milli identifikliyin sütunlarını möhkəmləndirir.

2019-cu ilin ən mühüm və əlamətdar hadisələrindən biri Prezident İlham Əliyevin həyata keçirdiyi islahat konsepsiyasına Yeni Azərbaycan Partiyasının da öz dəstəyini nümayiş etdirməsi oldu. İslahatların tamlığı və ahəngdarlığının təmin edilməsi onun sistem şəklində həyata keçirilməsini tələb edir. Başqa sözlə desək, icra və məhkəmə hakimiyyəti ilə yanaşı, qanunverici hakimiyyət sahəsində də islahatların keçirilməsi obyektiv zərurətə çevrildi. Cəmiyyətdə qanunverici hakimiyyət sahəsində yeniləşməsi, parlamentin qanunyaratma fəaliyyətinin daha təkmilləşdirilməsi, ümumiyyətlə parlamentin öz işini islahatlar strategiyasına uyğun olaraq təşkil etməsini nəzərə alaraq Parlamentin buraxılması və 2020-ci ildə növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı qərar verdi.

Eləcə də, dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində əldə olunan nəticələr partiyamızın il ərzində qazandığı əsas uğurlardan biridir.

Nəticə etibarilə, Azərbaycanda 2019-cu ilin mənzərəsi müsbət xarakterlidir, cari ildə bütün sahələrdə möhtəşəm nailiyyətlərin qazanılması ölkəmizin qüdrətinin daha da artmasını təmin edib, qarşıda yeni perspektivlər açıb.

***-Prezident İlham Əliyev dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib. Dövlətimizin başçısı mərasimdə dərinməzmunlu nitq söyləyib. Bu barədə də fikirlərinizi bilmək istərdik...***

- Ulu Öndər Heydər Əliyev çıxışlarının birində "kütləvi idman işinin inkişafına rəhbərlik böyük siyasi əhəmiyyətə malik işdir, çünki xalqın sağlamlığına bizim dövlət qayğımız həmişə böyük əhəmiyyət vermişdir və indi də verir" demişdir. Azərbaycanın hərtərəfli inkişafı üçün idman potensialının gücləndirməsi çox böyük əhəmiyyət daşıyır. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bunun təməlində məhz cənab Prezidentimiz İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğı dayanır.

Ölkə idmançılarının nəticələri, uğurları, qələbələri, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər. Ölkəmiz hər il yeni-yeni idman uğurlarına imza atır. Dövlətimizin başçısı bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mütəmadi olaraq mükafatlar təqdim edir.Aparıcı beynəlxalq idman qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır. 2019-cu ildə idmançılarımız qatıldıqları beynəlxalq yarışlarda 775 medal qazanıblar ki, onlardan 271-nin əyarı qızıldır. Bu, onu göstərir ki, ölkəmizdə idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanmağa qadirdilər.

Azərbaycanın cari ildə "Formula-1" Azərbaycan Qran-prisinə, bir sıra idman növləri üzrə qitə miqyaslı yarışlara, gimnastika üzrə dünya kuboklarına, Avropa çempionatına və UEFA Avropa Liqasının finalına uğurla evsahibliyi etməsi, atletlərimizin beynəlxalq turnirlərdə qazandıqları parlaq qələbələr ölkəmizin idman tarixinə qızıl hərflərlə yazıldı.

# Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılır

***Prezident İlham Əliyev Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.***



AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, Təhsil Nazirliyinin tabeliyində olan Akkreditasiya və Nostrifikasiya İdarəsi Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyinə çevrilmə yolu ilə yenidən təşkil ediləcək.

Fərmanla Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi təsdiq edilib. Təhsil Nazirliyinə "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli, Nazirlər Kabinetinə isə dövlət qeydiyyatına alındığı gündən iki ay müddətində Agentliyin inzibati bina ilə təmin olunması üçün müvafiq tədbirlər görmək, zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etmək tapşırılıb.

Təhsil Nazirliyi Agentliyin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada İqtisadiyyat Nazirliyinə müraciət etməli, Agentliyin strukturunu, işçilərinin say həddini və əməkhaqlarını (o cümlədən əməkhaqqına əlavələri, mükafatları və digər ödənişləri) iki ay müddətində Nazirlər Kabineti ilə razılaşdırmaqla təsdiq etməlidir.

# Avro dollar qarşısında bahalaşacaq



2020-ci ildə avro ABŞ dolları qarşısında 4%-dən çox bahalaşacaq. SİA xarici mətbuata istinadən xəbər verir ki, "Bloomberg" agentliyinin analitikləri bu qənaətə gəlib. Onların fikrincə, ABŞ və Çin arasında ticarət müharibəsinin səngiməsi qlobal maliyyə bazarlarında avroya inamı və tələbatı artırıb. Elə bu da bahalaşma üçün əsas səbəb, vacib amil hesab olunur.

# "2020-ci ildə daha çox mexaniki sayğacların quraşdırılmasına üstünlük veriləcək"




Bu il respublika üzrə təbii qazla təmin edilən abonentlərin sayı 2 milyon 262 min 242-yə çatıb. Onlardan 1 milyon 234 mini smart sayğacdan istifadə edir. Gələn il abonent sayının 112 min artacağı gözlənilir. Bu barədə "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev dekabrın 29-da ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında deyib. R.Əliyev qeyd edib ki, 2020-ci ildə daha çox mexaniki sayğacların quraşdırılmasına üstünlük veriləcək.

# Ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir

*Cari ildə təhsil sahəsində əldə olunan uğurlar təhsilin inkişafına ayrılan diqqətdən və dünya standartlarına uyğun qurulmasından qaynaqlanır*

***Azərbaycanın bütün sahələrində olduğu kimi, 2019-cu il təhsil sahəsində də uğurlar və nailiyyətlərlə yadda qalacaq. Bu gün sivil ölkələr sırasında Azərbaycanı nüfuzlu dövlət kimi görürüksə, bu dövlətin güclü silahı olan elmi inkişafdadır. Ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu sahənin daha da inkişafına yönəlmişdir. İyirmi birinci yüzillik elm və informasiya əsri olduğundan, sürətli inkişafda Azərbaycan da təhsilini dünya səviyyəsində qurur. Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb.***




Təhsil sahəsində olan statistik göstəriciləri bu sahədə həyata keçirilən dövlət proqramlarının, layihələrin, islahatların məntiqi nəticəsidir. Elə yola salmaqda olduğumuz 2019-cu ildə də təhsil sahəsində uğurlar əldə olunub. Hazırda təhsil bütün pillə və səviyyələr üzrə yenilənir. Belə ki, ölkəmizdə 2019-cu ildə 50-si modul tipli olmaqla, 84 məktəbin tikintisi və əsaslı təmiri başa çatdırılıb. 2003-2019-cu illər ərzində 3300-ə yaxın məktəb binası tikilib və ya əsaslı təmir edilib ki, bu da, bütün məktəblərin 74 faizini təşkil edir. Təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində, davamlı olaraq işlər görülür.

## MÜƏLLİMLİK RƏQABƏTLİ BİR PEŞƏYƏ ÇEVRİLİB

Ümumtəhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi uğurla başa çatdırılıb, müəllimlərin həftəlik dərs yükü 1,5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb. Müəllimlərin fəaliyyətinin stimullaşdırılması tədbirləri davamlı xarakter alıb, ölkə Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən, müəllimlərin aylıq vəzifə maaşları cari il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılıb. Görülən işlərin nəticəsidir ki, cari ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən, 3 dəfədən çox artaraq, 54 min nəfəri ötüb. Cari ildə ali məktəblərə qəbul imtahanlarında 500-dən çox bal toplayanlardan hər 4 nəfərdən biri və ya 25 faizi müəllimlik ixtisasını seçib.

İstedadlı gənc müəllimləri aşkara çıxarmaq, onların gələcək inkişafı üçün əlverişli şərait yaratmaq məqsədilə, Azərbaycan Gənc Müəllimlər Assosiasiyası yaradılıb. Elektron portallardan istifadə sayı 5 milyona yaxınlaşıb. Müasir standartlara cavab verən təhsil müəssisələrində yaradılmış şərait bu gün məktəblilərin beynəlxalq olimpiadalarda iştirakına, müxtəlif layihələrdə qalib kimi adının hallanmasına səbəb olub. 2019-cu ildə 76 Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin idmançıları ölkə və beynəlxalq miqyaslı yarışlarda 2847 medal (respublika üzrə 1810, beynəlxalq 1037) qazanıblar. Respublika və Beynəlxalq Olimpiada, incəsənət və idman sahəsi üzrə beynəlxalq yarışların qalibi olan 100 nəfər istedadlı gənc Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil almaq hüququ əldə ediblər.

## TƏQAÜD ALAN TƏLƏBƏLƏRİN SAYI CARİ TƏDRİS İLİNDƏ 45 FAİZƏ ÇATDIRILIB

Təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı müvafiq Sərəncama əsasən, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı cari il martın 1-dən 16 min vahid artırılıb, təqaüd alan tələbələrin sayı cari tədris ilində 45 faizə çatdırılıb, 2020-2021-ci tədris ilində isə, 50 faizə çatdırılması nəzərdə tutulub. 110 mindən artıq tələbənin təqaüdü artırılıb. Ölkə başçısının ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı imzaladığı fərman və sərəncamlara müvafiq olaraq, 600-ə yaxın doktorantın və 110 mindən artıq tələbənin təqaüdü 2019-cu il martın 1-dən orta hesabla 20 faiz, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 30 faiz artırılıb. 17 mindən çox tələbənin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Belə ki, bu gün ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan 17120 nəfər məcburi köçkün statusuna malik olan, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş şəxslərin uşaqları, I və II dərəcə əlilliyi olan, habelə, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin və tələbələrin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

90-a yaxın ölkədən 6600 nəfərdən çox əcnəbi tələbə 2019-2020-ci tədris ilində Azərbaycanda ali təhsilin bütün səviyyələri üzrə 90-a yaxın ölkədən 6600 nəfərdən çox əcnəbi tələbə təhsil alır. 259 nəfər xaricdə təhsil almaq hüququ qazanıb. Cari tədris ilində Hökumətlərarası Təqaüd proqramları çərçivəsində Macarıstanda 200, Çində 37, Rumıniyada 2, Rusiya Federasiyasında 3, Latviyada 13, Qazaxıstanda 4, ümumilikdə isə, 259 nəfər xaricdə təhsil almaq hüququ qazanıb. 2019-cu ildə 701 SABAH tələbəsi məzun olub. Onlardan 287 nəfər Azərbaycanda, 136 nəfər isə xaricdə magistratura təhsili alır.

"2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın icrasına başlanılıb. İlkin mərhələdə proqram çərçivəsində 5 beynəlxalq ikili diplom proqramının təsis olunması ilə bağlı hazırlıq işləri görülməkdədir. Xaricdə doktorantura təhsili üçün prioritet ixtisaslar artıq müəyyən edilib, seçim məqsədilə müvafiq elan verilib.

Bu yüksək göstəricilərin əldə edilməsi ölkəmizdə təhsilin inkişafına ayrılan diqqətdən və dünya standartlarına uyğun qurulmasından qaynaqlanır. Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda, Azərbaycan təhsilinə yönəlmiş diqqət, məhz bu sahədə zamanın tələblərini ödəyə biləcək ziyalıların yetişməsinə doğru uğurlu bir addımdır.

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu və keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Dövlət başçısı İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 16 il ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayır. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə və yüksək nəticələrin qazanılmasına xidmət edir. Gələcəyin inkişafı onun təhsilindən başlayır. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir.

***Zümrüd BAYRAMOVA***

## Bu il Azərbaycanda müəllimlərin maaşı 20 faiz artırılıb



Bu il Azərbaycanda müəllimlərin maaşı 20 faiz artırılıb. SİA xəbər verir ki, bu barədə Təhsil Nazirliyinin illik hesabatında bildirilib. Prezident İlham Əliyevin sərəncamına əsasən, müəllimlərin aylıq vəzifə maaşı bu il sentyabrın 1-dən orta hesabla daha 20 faiz artırılıb və orta aylıq əməkhaqqı 600 manata çatıb. Bu artımlardan sonra aylıq əməkhaqqı 1000 manatdan çox olan müəllimlərin sayı, təxminən, 5 min nəfər təşkil edib.

## Şəhid anası: Yeni ili yeni mənzildə qarşılayacağıq



Şəhid ailələrinə dövlətimiz tərəfindən daim yüksək qayğı göstərilir. Bayram ərəfəsində Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə dövlətimiz tərəfindən yeni evlərin verilməsi bu qayğının göstəricisidir.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbiri ilə söhbətində Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş Ağcabədi rayon Kürdlər kənd sakini şəhid Faiq İbrahimovun anası Səringül İbrahimova deyib. O bildirib ki, ermənilərin respublikamıza qarşı hərbi təcavüzü başlayanda oğlu Faiq İbrahimov da özünümüdafiə batalyonlarına qoşularaq, Vətənimizin müdafiəsinə qalxıb. Ağdam istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. 1993-cü ilin yanvarında Mərzili kəndinin yaxınlığında gedən döyüşlərdə şəhid olub. Şəhidlərin xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğunu bildirən Səringül İbrahimova deyib: "Şəhid ailəsi olaraq dövlətin qayğısını daim hiss edirik. Bir çox imtiyazlardan faydalanırıq. Bu gün dövlətimiz tərəfindən ailəmizə yeni mənzil verildi. Yeni ili yeni mənzildə qarşılayacağıq. Bir şəhid anası kimi göstərilən yüksək qayğıya görə Prezidentimizə minnətdaram".

## Gövhər Baxşəliyeva: Azərbaycan dünyaya yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir



"Azərbaycan dünyaya yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir dövrdə Azərbaycan həm sivilizasiyalararası dialoqun təşviqi və inkişafına mühüm töhfələr verir, həm də sabitliyi, sülhpərvər və tərəqqipərvər mövqeyi ilə nümunə kimi çıxış edir". Bu fikirləri Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyeva deyib.

G.Baxşəliyeva bildirib ki, ölkəmizdə multikulturalizmin həm dövlət siyasəti, həm də cəmiyyətdə həyat tərzi olması beynəlxalq miqyasda da olduqca yüksək qiymətləndirilir. Onun sözlərinə görə, Azərbaycanda tolerantlıq, milli-dini-irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur.

"Azərbaycanda xalqların, milli və dini icmaların heç bir fərq qoyulmadan bərabər yaşamasına, sıx inteqrasiya etməsinə həm dövlət güclü siyasi iradə nümayiş etdirir, həm də cəmiyyətdə buna böyük istək var. Təsadüfi deyil ki, bu gün ölkəmizdə mövcud olan milli həmrəylik, sabitlik və tolerantlıq mühiti məhz bu dəyərlərə əsaslanır. Tolerantlıq mərkəzi və multikulturalizm diyarı kimi tanınan Azərbaycan həm də İslam həmrəyliyinə əvəzsiz töhfələr verir. Şərq və Qərb sivilizasiyalarının harmonik şəkildə qovuşduğu Azərbaycanda müxtəlif dövrlərə və mədəniyyətlərə, o cümlədən İslam mədəniyyətinə məxsus tarixi abidələr, maddi mədəniyyət nümunələri, mənəvi irs dövlət səviyyəsində qorunur, himayə olunur. Eyni zamanda, Azərbaycan müsəlman ölkələri arasında - İslam aləmində nüfuzlu dövlət kimi tanınır. Məhz bunun qanunauyğun nəticəsidir ki, respublikamız müsəlman ölkələri ilə ikitərəfli və çoxtərəfli praqmatik əlaqələrə malikdir və münasibətlərin inkişafı, bütövlükdə, İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına xidmət edir"-deyə, akademik vurğulayıb.

# İcbari Sığortaya keçid rayonlar üzrə hansı tarixdə olacaq?




***Nazirlər Kabineti icbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığı qərarını şərh edib. SİA xəbər verir ki, qərar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 dekabr tarixli 898 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanıb.***

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda edilən son dəyişikliklərə əsasən icbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə mərhələli şəkildə tətbiq olunması nəzərdə tutulub. Nazirlər Kabinetinin müvafiq Qərarı həmin mərhələləri müəyyən edir və ölkənin şəhər və rayonlarında icbari tibbi sığortaya keçidin konkret müddətlərini dəqiqləşdirir. Qərarda bu prosesin aşağıdakı göstərilən 4 mərhələdə aparılması və 2020-ci ildə tamamlanması nəzərdə tutulub:

1. 2020-ci ilin yanvar - mart aylarında Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında, Mingəçevir şəhərində, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Yevlax və Ağdaş rayonlarında.

2. 2020-ci ilin aprel - iyun aylarında Gəncə, Naftalan və Xankəndi şəhərlərində, Göygöl, Goranboy, Daşkəsən, Samux, Şəmkir, Qazax, Ağstafa, Gədəbəy, Tovuz, Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Beyləqan, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarında.

3. 2020-ci ilin iyul - sentyabr aylarında Şirvan şəhərində, Lənkəran, Masallı, Lerik, Yardımlı, Astara, Cəlilabad, Salyan, Neftçala, Biləsuvar, İmişli, Saatlı, Hacıqabul və Sabirabad rayonlarında.

4. 2020-ci ilin oktyabr - dekabr aylarında Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda.

İcbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə mərhələli qaydada tətbiqi vətəndaşlara xidmətlər zərfi çərçivəsində ilkin səhiyyə xidmətinin, təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin, ambulator və stasionar, o cümlədən dəyəri yüksək olan həyati vacib tibbi xidmətlərin göstərilməsinin daha effektiv tənzimlənməsini və ölkənin icbari tibbi sığortaya tam hazırlıqlı olmasını təmin edəcəkdir.

*İnam Hacıyev*

# Riskli vergiödəyicilərinə xəbərdarlıq ediləcək




***Gələn ildən riskli vergiödəyicilərinin apardıqları əməliyyatlar üzrə onlar tərəfindən təqdim olunan elektron qaimə-fakturalar üzrə əvəzləşmələr qəbul edilməyəcək.***

Vergilər Nazirliyinin Media və Kommunikasiya İdarəsindən AZƏRTAC-a bildirilib ki, həmin e-qaimələr həm də mənfəət və gəlir bəyannaməsində xərc sənədi kimi tanınmayacaq. Riskli vergiödəyicisinin artıq ödəməsi yarandıqda həmin məbləğ onlara müvafiq nəzarət tədbirləri başa çatdıqdan sonra geri qaytarılacaq. Riskli vergiödəyicisinin borcları yaranarsa, əmlakının dərhal siyahıya alınması həyata keçirilə bilər.

Həmçinin vergiödəyicisi şəxsi elektron kabinetində əməliyyat aparmaq istəyərkən ekranda ona əməliyyat apardığı şəxsin riskli vergiödəyicisi olması barədə xəbərdarlıq ediləcək. Əgər vergiödəyicisi buna məhəl qoymayıb əməliyyatı başa çatdırsa, ona yenə xəbərdarlıq olunacaq.



# Paşinyan Koçaryanla həbsxana kamerasını bölüşdürəcəkmi?

*“Armenianreport”: “Jurnalistlərə qarşı hücumlar, KİV-lərə qarşı məhkəmə iddiaları, hətta son 10 ildə bu qədəri olmamışdı. O, diktatora çevrilib”*

***Ermənistanda son günlər Nikol Paşinyan hakimiyyətinin ölkənin Konstitusiya Məhkəməsinə və sədrinə qarşı başlatdığı hücumlar, bu institutun ləğvi istiqamətində apardığı siyasət sərt şəkildə tənqid olunmaqdadır. Bu mənada, ölkə KİV-ləri də çoxsaylı materiallar verir, müxtəlif siyasi-ictimai ekspertlər və politoloqlar sözügedən addımı Ermənistanda başladılan növbəti diktatura siyasətinin başlanğıcı kimi qiymətləndirirlər.***

“Armenianreport”un analitik jurnalisti Tevos Arşakyan “Konstitusiya Məhkəməsi Paşinyanın birmənalı hakimiyyəti qarşısında səddir” başlıqlı məqaləsində bu məsələ ətrafında mülahizə apararaq qeyd edib ki, əgər Nikol, həqiqətən də, özünü demokrat kimi təqdim edirsə, onda ölkədə baş verən digər məsələlər də onun bu təqdimatını alt-üst edir. Üstəlik, hakimiyyət dayaqlarını laxlatmağa başladır.



## Tevos Arşakyan: “Paşinyan bu instansiya barədə heç bir təsəvvürə malik deyil”

Sözügedən yazısında “Biz hansı demokratiyadan danışırıq ki, son il yarım ərzindəki faktlara görə, jurnalistlərə qarşı bu qədər çox hücumlar baş verib və KİV-lərə qarşı nə qədər məhkəmə iddiaları irəli sürülüb, hansı ki, ötən 10 il ərzində bu qədəri olmamışdı” deyə yazan erməni analitik qeyd edir ki, bütün bunlar jurnalist və baş redaktor olmuş, bu gün isə arvadının qəzet sahibi olduğu şəxsin hökumətə rəhbərliyi dövründə baş verir: “Belə olan vəziyyətdə Konstitusiya Məhkəməsi barədə daha nə danışmaq olar ki? Halbuki Paşinyan bu instansiya barədə heç bir təsəvvürə malik deyil”.

Arşakyan, həmçinin, təəssüf hissi keçirdiyini qeyd edərək, həm də etiraf edib ki, bugünkü Ermənistan, eyni zamanda, Koçaryan və Sarkisyanın dövründə olduğu kimi, dövlət-hüquq normalarından və demokratik dəyərlərdən uzaqdadır.

## “Nikol Vovayeviç hakimiyyətini bu cür uzurpasiya edirsə...”

“Biz onu da görürük ki, özünü demokrat olaraq mövqeləşdirən Paşinyan xələfləri kimi diktatora çevrilir” deyə məqaləsində yazan erməni jurnalist analitiki burada Robert Koçaryanla Serj Sarkisyanı nəzərdə tutub və Nikol Paşinyanın da, artıq hakimiyyət baxımından diktatorluğa doğru yönləndiyini bildirib. Hətta əvvəlki iki diktatorun hakimiyyətləri zamanı törətdikləri əməllərinin Paşinyanın əvvəlləri qarşısında az olduğunu da qeyd edib: “Həqiqətən də, hakimiyyət insanları dəyişir, birmənalı haikimiyyət isə iki dəfə artıq. Əfsuslar olsun ki, mən artıq Paşinyanla Koçaryan arasında heç bir fərq görmürəm. Lakin onların arasında müəyyən fərqlər ola bilər - onlardan biri həbsxanadadır. Lakin Nikol Vovayeviç hakimiyyətini bu cür uzurpasiya edirsə, tam mənada, özünün əsas siyasi rəqibi ilə həbsxana kamerasını bölüşdürə bilər”.

***Rövşən RƏSULOV***




## “ASAN xidmət” işçilərinin peşə bayramı qeyd olunub

Dekabrın 29-da “ASAN xidmət” işçilərinin peşə bayramı günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin kollektivi Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib. Agentliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ulu öndər Heydər Əliyevin xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub.




Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanında ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub. Agentlikdə keçirilən tədbirdə agentliyin sədri Ülvi Mehdiyev çıxış edərək əməkdaşları peşə bayramı günü münasibətilə təbrik edib. Sonda xidməti fəaliyyətində fərqlənən əməkdaşlara təşəkkürnamələr təqdim olunub.

## Gələn ildən təqdim edilmiş mallara görə yalnız elektron qaimə-faktura veriləcək

Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 2020-ci il yanvarın 1-dən təqdim olunmuş mallara (işlərə, xidmətlərə) görə elektron vergi hesab-fakturasının verilməsi ləğv edilib. Həmin tarixdən etibarən təqdim edilmiş mallara görə ƏDV ödəyiciləri tərəfindən yalnız elektron qaimə-faktura təqdim olunacaq.

Vergilər Nazirliyinin Media və Kommunikasiya İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, gələn il yanvarın 1-dək təqdim edilmiş mallara görə isə elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturası da təqdim edilir. Belə ki, qanunvericiliyə əsasən, sözügedən müddətdə alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilən ƏDV-nin əvəzləşdirilməsi 2020-ci il yanvarın 1-dək mövcud olan qaydada həyata keçirilir.

## Müəllimlərin orta aylıq əməkhaqqı 682 manatdır

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan müəllimlərin orta aylıq əməkhaqqı 2019-2020-ci tədris ili üçün 682 manat təşkil edir. SİA xəbər verir ki, bu barədə BŞTİ-nin illik hesabatında deyilir.



Hesabatda ali və orta ixtisas məktəblərinə qəbul göstəriciləri də qeyd edilib. 2019-2020-ci tədris ili üçün ali və orta ixtisas təhsili müəssisələrinə qəbul göstəricilərində də müsbət dinamika müşahidə olunub. Belə ki, qəbul imtahanlarına müraciət edən 17 505 abituriyentin 13 012 nəfəri, yəni 74 faizi respublikanın müxtəlif ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olub. 500 və 500-dən yuxarı bal toplayan abituriyentlərin sayı qəbul olunanların 22 faizini təşkil edib. Qəbul imtahanlarında ən yüksək nəticə göstərərək ali məktəblərə daxil olmuş 102 tələbəyə prezident təqaüdü verilib. Onlardan 26-sı BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin məzunlarıdır.

***İnam Hacıyev***

TƏRS BAXIŞ

# Əli Kərimli tamadalığı atıb, repçiliyə keçir

*Və ya AXCP sədrinin girmədiyi kol dibi qalmadı*

***Yadıma bir zamanlar Türkiyədə təxribat nəticəsində qətlə yetirilmiş "Aqos" qəzetinin baş redaktoru Hrant Dinkdən sonra bir qrup türkün "Həpimiz ermənyiz, həpimiz Hrant Dinkiz" şüarı ilə millətinə və dövlətinə qarşı xainlik etməsi düşdü. Niyəsi isə bundadır ki, həmin vaxtlarda Əli Kərimlinin toruna düşmüş, həyatları zəhərlənmiş bəzi dırnaqarası kosmopolit gənclər bu şüara dəstək vermişdilər. Amma AXCP sədri bu məsələdə, yəni tərəfdarları sayılan həmin gənclərin sözügedən şüara dəstək vermələrinə görə cınqırını da çıxarmadı. Əksinə, guya Azərbaycanda da belə qətllərin davamlı olacağı ilə bağlı, sözün əsl mənasında, sarsaq iddialar irəli sürdü.***

## Ona dozasından artıq "Ozverin" həbi veriblər...

Əslində, özüm də anlamağa başlamışam ki, axı bu Ə.Kərimlidən nə qədər yazmaq, belə sarsaq ünsürü nə qədər reklam etmək olar? Ancaq nə edəsən ki..? O sarsaqladıqca, mən, yaxud digər dövlətinə xidmət edən jurnalist həmkarlarım da, yazmağa məcbur qalırlar. Fəqət, bu ünsür susmur ki, susmur, əksinə, daha da azğınlaşır və quduzlaşır. Çünki vaxtilə xidmət göstərdiyi dairələr ona dozasından artıq "Ozverin" həbi veriblər... Yəqin ki, bir çoxları, mövzunun nədən olacağını bəri başdan bildilər. Bilməyənlərə isə deyim ki, budəfəki mövzu repçilikdəndir. Pərviz Quluzadənin guya oxuduğu repə görə həbs olunduğunu iddia edən Kərimli bu dəfə "bir güllə ilə iki dovşan vurmağa" çalışaraq, özünə xal toplamağa çalışıb. Yəni bu məsələdə bloqer Mehman Hüseynovun guya "etiraz" edərkən, polis tərəfindən döyülməsi və s. məsələsini də qatıb öz sərsəm iddiasının gözünə.



## Narkomanından tutmuş, kley iyləyəninədək hər kəs var

Bəs, əslində, nədədir məsələ? Özünü partiya sədri, yaxud "ana müxalifət lideri" kimi təqdim edən Ə.Kərimli bilmirmi ki, görmürmü ki, qanmırmı ki, həmin o Pərviz Quluzadənin həbsi nəyə görədir? Axı rəsmi məlumat da ortadadır. Məlum olub ki, Daxili İşlər Nazirliyi reper Pərviz Quluzadənin saxlanılmasına aydınlıq gətirib. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, adıçəkilən repçi Binəqədi rayonu ərazisində narkotikin təsiri altında ictimai asayişi və ictimai qaydanın pozulmasına yönəldilmiş hərəkətlər edərkən, polis əməkdaşları onu intizama dəvət edib. Lakin o, polisin qanuni tələblərinə tabe olmayıb. Bundan sonra o, polis tərəfindən saxlanılaraq, barəsində toplanmış materiallar Binəqədi Rayon Məhkəməsinə göndərilib. Binəqədi Rayon Məhkəməsi tərəfindən P.Quluzadə İnzibati Xətalar Məcəlləsinin 510-cu (xırda xuliqanlıq) və 535.1-ci (polisin qanuni tələbinə tabe olmamaq) maddələri ilə təqsirli bilinərək, barəsində 30 sutka həbs qərarı çıxarılıb. Beləliklə, bəllidir məsələ. Daha doğrusu, Ə.Kərimli nə zamandan doğru-dürüst adamları öz ətrafına yığıb ki, bundan sonra da yığsın. Narkomanından tutmuş, kley iyləyəninədək, hər kəs var. Ancaq məsələ bəlli olsa da, AXCP sədri özünü qoyub əməlli-başlı axmaqlığa, üstəlik, bloqerlik sənətini də kənara qoymaqla, başlayıb özü kimilərini ətrafında hapa-gopa və repə basmağa ki... Bəs guya onun həbsinin motivi siyasiləşdirilib və s.

## Əslində, bundan nə desən gözləmək olar...

Üstəlik, bloqer Mehman Hüseynovun da bu məsələdə özünü növbəti dəfə lezvalaması, üz-gözünü, yaxa-başını cırması, polisə qarşı qarayaxma kampaniyası aparması və bu kirli kampaniyada yenə də Ə.Kərimlinin əttökən-əttökən statuslar paylaşması, məndə belə bir təəssürat oyatdı ki, yəqin AXCP sədri bundan sonra mitinq və aksiyalarında tamadalıq deyil, repçilik edəcək. Sərsəm düşüncə və fikirlərini hip-hop oynayıb, rep deməklə tərəfdarlarına çatdıracaq. Əslində, bundan nə desən gözləmək olar. Əgər sabah-birigün AXCP sədri repdən roka, rokdan caza, cazdan blüzə, blüzdən romansa, romansdan da ariyaya keçidlər edərsə, buna qətiyyən təəccüb hissi keçirmərəm. Zatən, hərşeyşünas Ə.Kərimlinin girmədiyi, nə bilim, nə isə etmədiyi kol dibləri də qalıb-eləməyib...

**Rövşən NURƏDDİNOĞLU**

---



# Gözləyək, müşahidə edək və görək

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Parlament seçkilərində iştirak edəcək bir çox müxalifət partiyaları, artıq seçkilərə hazırlıq proseslərinə başlamaqla yanaşı, bir-birləri ilə rəqib ola biləcəkləri dairələrdə üstünlüyü ələ almaq istiqamətində amansız mübarizəyə başlayıblar. Mətbuatda gedən məlumat və informasiyalardan da görünür ki, hər bir partiyanın təmsilçisi özünü "öncül" görür və bunu anlamaq da çətin deyil. Daha dəqiq desək, iqtidara qarşı siyasi mübarizə aparan müxalifət düşərgəsi, indi də bir-birlərinə qarşı qızğın mübarizəyə start veriblər.***

## Demokratik seçkilərə qatıldıqlarını bu addımları ilə etiraf edirlər

Düzdür, bütün bunlar, təbii anlaşılmalıdır, çünki əgər müxalifət parlament seçkilərinə gedirsə, bir-iki partiya və qurumun "boykot" qərarları, ümumiyyətlə, heç bir rol oynamır və eyni zamanda, düşərgənin digər təmsilçiləri tərəfindən, birmənalı olaraq rədd edilir, o cümlədən, seçkilərdə iştirak qərarı vermiş müxalifət iddialıları seçki qanunlarına uymaqla, demokratik seçkilərə qatıldıqlarını bu addımları ilə etiraf edirlər.

Erkən parlament seçkilərinin keçirilməsi qərarının verilməsinə qədər, həmin partiyalar da digərləri kimi, "qeyri-şəffaf seçki" mövzuları ətrafında var-gəl etməkdə idilər. Bu gün isə hər şey başqadır və ölkədə həyata keçirilən islahatlar içində siyasi islahatların da aparılması, bütövlükdə, düşərgə təmsilçilərinin baxış bucaqlarının dəyişməsinə səbəb olub.

Beləliklə, parlament seçkilərində iştirak qərarını vermiş müxalifət partiyaları indi sosial şəbəkələrdə, mediada və s. informativ məkanlarda özlərinə rəqib gördükləri digər müxalifət təmsilçilərinə meydan oxuyur, hətta vəziyyət bir sıra hallarda sərt tənqidlərdən, keçmiş xəyanətlərdən təhqirlərə qədər gedib çıxır. Bunun üçün isə, bir sıra misallar gətirmək olar. Yəni onları sadalamağa da dəyməz, əslində...

Fakt isə budur ki, seçkilər, necə deyərlər, qapının ağzını kəsdirib və söz yox ki, biz burada, bilavasitə seçkilərə aid köhnə, lakin əbədi qalacaq şüarı xatırlatmaq istərdik - qoy güclü qalib gəlsin. Ancaq müxalifətin zəifliyinin bir-birləri ilə müarizədə hansı güc göstərəcəkləri də, etiraf edək ki, sual doğurur. Hər halda, gözləyək, müşahidə edək və görək...

---

# Kompüterdən və internetdən kimlər daha çox istifadə edir?



Azərbaycanda kompüter və internet istifadəçilərinin çoxu ümumi orta təhsilli insanlardır. SİA-nın xəbərinə görə, kompüter istifadəçilərinin 58,6 faizi ümumi orta təhsilli, 17,6 faizi orta təhsildən sonrakı təhsilə malik (qeyri-ali təhsil), 23,8 faizi ali təhsillidir. Şəhər yerləri üzrə kompüter istifadəçilərinin 50,2 faizi ümumi orta təhsilli, kənd yerləri üzrə 71,2 faizi ümumi orta təhsillidir. Ümumilikdə şəhər yerləri üzrə kompüter istifadəçilərinin 24,6 faizi orta təhsildən sonrakı (qeyri-ali təhsil), 25,2 faizi ali təhsilli, kənd yerləri üzrə kompüter istifadəçilərinin 7,1 faizi orta təhsildən sonrakı (qeyri-ali təhsil), 21,7 faizi ali təhsillidir.

2018-ci il üzrə olan məlumata əsasən, Azərbaycanda internet istifadəçilərinin 60,2 faizi ümumi orta təhsilli olub. İnternet istifadəçilərinin 18,1 faizi orta təhsildən sonrakı (qeyri-ali təhsil), 23,8 faizi ali təhsillidir. Azərbaycanda internet istifadə edənlərin çoxunun məqsədi informasiya axtarmaq və əlaqə yaratmaqdır. İstifadəçilərin 29,9 faizi internet şəbəkəsindən informasiya axtarmaq, 29, 5 faizi əlaqə yaratmaq, 6,9 faizi təlim və təhsil, 17,4 faizi oyun yükləmək və musiqiyə qulaq asmaq, 1,5 faizi əmtəə məhsullarının sifarişi və satışı, 14,8 faizi hakimiyyət orqanları ilə əlaqə yaratmaq məqsədilə internet şəbəkəsindən istifadə edir.

# Siqaret çəkən 235 sürücü cəzalandırılıb



"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn bəzi məsələlərin icrası ilə bağlı həyata keçirilən layihə uğurla davam edir. Bakı Nəqliyyat Agentliyindən SİA-ya verilən məlumata görə, layihənin icra edildiyi 4-cü rübün sonunda avtobus sürücülərinin sükan arxasında tütün məmulatından istifadə etməsi ilə bağlı ümumilikdə 127 müraciət daxil olub. Bu müraciətlər əsasında müxtəlif müntəzəm marşrut xətlərində çalışan 36 nəfər avtobus sürücüsü barəsində İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tənbeh tədbiri görülüb. Qeyd edək ki, 2019-cu ilin yekunlarına əsasən 235 sürücü barəsində İnzibati Xətalar Məcəlləsinə əsasən protokol tərtib edilib.

# Doktoranturalar yaradılan elmi müəssisələrin siyahısında dəyişiklik edilib



Nazirlər Kabineti "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nda dəyişiklik edib. SİA-nın məlumatına görə, bu dəyişikliyə əsasən, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə" doktoranturaların yaradılması bölməsi ləğv edilsin. Texnologiyalar Nazirliyi üzrə - Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzində doktoranturaların yaradılması ləğv edilib. Yeni qərarla Gənclər və İdman Nazirliyi üzrə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında fəlsəfə doktoru və elmlər doktoru üzrə kadr hazırlığı aparılacaq.

# "Azərsu" bayram günlərində gücləndirilmiş iş rejimində çalışacaq



"Azərsu" ASC 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar qeyri-iş günlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. ASC-dən AZƏRTAC-a bildirilib ki, bununla əlaqədar, Səhmdar Cəmiyyətin Aparatında və yerli sukanal idarələrində növbətçilik rejimi tətbiq ediləcək. Qəza briqadaları və "955" Zəng mərkəzi 24 saat əhalinin xidmətində olacaq. Bayram və qeyri-iş günlərində əhalinin içməli su ilə təchizatında dayanıqlılığın təmin olunması, həmçinin bayram tədbirlərinin keçirildiyi yerlərin fasiləsiz su təminatı məqsədilə bütün təşkilati və texniki tədbirlər görüləcək.

# Xəyanət simptomları...

## *Əli Kərimli və Cəmil Həsənli kimi antimilli ünsürlər cəmiyyətdən təcrid etməlidir*

***Fransız psixoloqu Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu, sistemli şəkildə davamlı olur və ətraf mühitdə ikrah yaranır.***

Bu məntiqlə yanaşsaq, aydın olur ki, bu gün müxalifət illərdi ki, eyni mühitdə qalıblar, zaman-zaman bir-birilərinə xəyanət ediblər və demək olar ki, artıq bir periodiklik yaranıb və bunun qarşısını almaq, sadəcə, mümkün deyil. Necə ki, bu gün AXCP sədri Əli Kərimli və "Milli Şura"nın sədri Cəmil Həsənli kimilər nə yaşına, nə də başına hörmət edir. Yenə də o çirkin əməllərindən əl çəkmirlər. İndi də parlament seçkiləri ərəfəsi başlayıblar səviyyəsiz çıxışlar etməyə. Xüsusilə də, müxalifətin əksər siyasi partiyalarının seçkilərə qatılmasını xəyanətdə suçlamaqla, işlərini bitmiş hesab edirlər. Ən düşüklü hal isə, AXCP sədri Ə.Kərimlinin şəninə "tərif" deməsidir. Doğrudur, bu gün hər kəs onu da bilir ki, C.Həsənli Ə.Kərimlinin "danışan dili" rolunda çıxış edir. Ə.Kərimli deyirsə, sür dərəyə, o saat sürür dərənin düz kandarına! Yəni bu kimi xəyanətkar elan etmək hadisələri fonunda C.Həsənlinin tək, özbaşına hərəkət etməsini, nəticələrə gələrək "səsli-küylü" bəyanatlar səsləndirməsini demək olmaz. O, bilavasitə AXCP sədri Əli Kərimlinin ətəyindən asılı olan bir kəsdir.

Bütün bunlar isə, bir daha sübut edir ki, nökərçilik etdikləri erməni lobbisinin xoşuna gəlməkdən ötrü, Ə.Kərimli və onun ipli kuklası rolunda çıxış edən C.Həsənli, hətta daha böyük milli xəyanətlərdə bulunmağa hazır olduqlarını sərgiləyirlər.

### Xəyanətkar xəyanətkarın yanında

Əgər oxucularımızın yadındadırsa, bir neçə il bundan öncə, Gözəl Bayramlı AXCP sədrini tərifləyib onun Nelson Mandella ilə müqayisəsini aparırdı. Ancaq rəhmətlik Həsən Kərimovun bir dəfə bu cür bənzətmələrə və oxşatmalara etiraz etməsi cəbhəçilər tərəfindən necə daş-qalağa tutmuşdular, yazıq elə o oturan oldu yerində. Ən gülməlisi isə, Nurəddin Məmmədlinin rusiyalı müxalifətçi Nemtsovun ölümündən sonra Ə.Kərimlini onunla müqayisə etməsi idi: "Nemtsov Əli bəyə qibtə edirdi..." Buyurun, indi də C.Həsənli onu A.Eynşteynlə bir tərəziyə qoyur. Bax, bu yerdə deyirlər ki, həyasızlığın son nöqtəsi. Ay Cəmil bəy, heç olmasa, belə bir iddia ilə çıxış edəndə, öz yazdığın "Ağ ləkələrin qara kölgəsi" çızma- qaranı gözünün qabağına gətirəydin. Adı çəkilənlərin hamısı siyasətdə, elmdə uğur qazanmış, bütün dünyanın tanıdığı şəxslərdilər. Bəs Ə.Kərimli kimdir? Sənin kimi, Əli Kərimli də xəyanət, qisaslar, intriqalar toplusudur. AXCP sədri Əli Kərimli və onun "banditos" dəstəsi Vətəndən, millətdən və demokratiyadan çox danışsa da, həmişə sözləri əməllərinə zidd olub.



### Hafiz Hacıyev: "Cəmil Həsənlinin qanı da erməni qanıdır"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev Cəmil Həsənlinin "professor" adına layiq olmadığını və səviyyəsiz düşüncəli erməni yalağı olduğunu bildirib. Qeyd edib ki, satqın Leyla Yunusun etdiyi cinayətkar əməllərinə görə cəzalandırılmasını faşistlərin yəhudilərə qarşı davranışlarına bənzətməsi elə C.Həsənlinin satqın olduğunu göstərir: "Xatirinizdədirsə, mən hələ prezident seçkiləri ərəfəsindəki debatların birində Cəmil Həsənlinin üzünə dedim ki, sənin qızın erməniyə ərə gedib. O da, qayıdıb dedi ki, mən bir xristiani müsəlman etmişəm. Yəni onun özü də bunu səmimi şəkildə etiraf elədi. Belə olan halda, cəmiyyət C.Həsənlidən başqa nə gözləməlidir ki?"

MMP sədri bildirib ki, C.Həsənli erməniləri müdafiə etməyə məcburdur: "Cəmil Həsənli məcburdur ki, ermənini müdafiə etsin. Erməni ermənini müdafiə etməlidir. Yəni bunların hamısı bir mənbədən qidalanan adamlardır. Onların hamısı dünyanın hər yerinə səpələnmiş, Azərbaycanı gözü götürməyən erməni lobbisindən və erməni xüsusi xidmət orqanlarından faydalanırlar. Hətta bu gün bilməlisiniz ki, Leyla Yunusun, nəinki Antaliyada, eləcə də, Ermənistanda da evi var. C.Həsənlinin qızının qayınatasının, yəni onun qudasının İrəvanda "Armeniya" mehmanxanasının yaxınlığında "Ani" restoranın yanında böyük mülk və biznesi var. Yəni bunların hamısı bir adamlardır. Cəmil Həsənli də, Ə.Kərimli də İ.Qəmbər də, L.Yunusu müdafiə edən hər kəs, Azərbaycan əleyhinə işlədikcə, onların ciblərinə xaricdən böyük pul axını gəlir. Ona görə də, xaricdə mülklər, bağ evləri və villalar alırlar. Yəni yaşayışlarını orada qururlar. Bu baxımdan, mən dəfələrlə təklif etmişəm, tələb etmişəm ki, belə adamlar Azərbaycandan deportasiya olunsunlar".

### Tarixi yalanlar və saxta vədlər...

Bu yerdə jurnalist Eynulla Fətullayev Ə.Kərimlini quduz oğru itlərinə bənzətməsi lap yerində deyilmiş faktdır. E.Fətullayev özünün "facebook" hesabında AXCP sədri və onun tərəfdarlarına həsr etdiyi statusda maraqdoğurucu iddia ilə çıxış edərək, bildirib ki, Ə.Kərimli və digər murdar cəbhənin virusları oğru itlərdir: "Bu siyasi cinah öz murdar mahiyyətini ortaya qoyur. Məncə, günahkar Ayaz Mütəllibovdur. 1992-ci ildə bu nadan siyasi kütləni quduz itlər kimi güllələsəydi, Azərbaycan siyasətindən belə üfunət gəlməzdi... Üfunət iyi verənlər "siyasi mühacir" adı ilə Avropanın zibilliklərində eşələnirlər".

Bax, budur həqiqət. Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimli-C.Həsənli kimi antimilli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid etməlidir.

***Rəfiqə HÜSEYNOVA***



## Yazıqlar sənə, rəzil qadın-Gültəkin Hacıbəyli...

**RƏFİQƏ**

***Nankorluq insan xislətinə yaraşmayan haldır. Ancaq vay o hala ki, insan olub, şeytan və iblis cildinə girə. Bax, bu, dəhşətdir. Haqqı qoyub, nahaq danışan, ancaq pisliklər etməkdən həzz alanlar isə nankorlardır. Bəzən elə nankorlar olur ki, bağışlanılır. Ancaq Vətənin havasını udub, çörəyini yeyib, suyunu içən nankorları bağışlamaq özü cinayətdir.***

"Milli Şura" deyilən manqurtlar yuvasında cəmləşən, layiq olmadıqları hakimiyyət arzusu ilə yaşayayaşaya həyasızlıq edən erməni maşasının qulbeçəsi olan G.Hacıbəyli parlament seçkiləri ərəfəsi sosial şəbəkələrdə başlayıb parlament seçkilərinə "tor" atmağa. Seçkidə iştirak etmədiyi halda, yuyulmamış qaşıq kimi düşüb ortaya başlayıb ki, "müxalifət düz deyir, Azərbaycanda proporsional seçki sistemi "bərpa olunmalıdır". Müxalifətçi libası altında siyasi meydanda əsl çılpaqlıq nümayiş etdirən G.Hacıbəylidən soruşmaq lazımdır: deputat kreslosunda oturarkən, hansı seçki sistemi ilə getdiyini nə tez unutdun? Rəzil qadın, sən hər şeyi unutmağa adət etmisən. Yadındadır, 2009-cu ildə Milli Məclisin plenar iclasındakı çıxışın zamanı deyirdin ki, Azərbaycan demokratiya yolunda addımlarını atan bir ölkə kimi, sözsüz ki, insan haqları sahəsində də inkişaf edir: "Azərbaycanda insan haqları sahəsində spekulyasiyalar da var. Məhz bu spekulyasiyalar nəticəsində, bəzən biz terrorçuların və casusların cəmiyyətə siyasi məhbus kimi təqdim edilməsi, sırınması niyyətlərini görürük". Nankor Hacıbəyli, bir izah et görək, nə dəyişdi? Necə olur on il parlamentin kürsüsünə majoritar seçki sistemi ilə gələrkən, "proporsional sistemin tətbiqini istəyirik" demirdin, indi yatıb yuxunda erməni başmağı görmüsən? Anlatmaq istərdim ki, Azərbaycan xalqı 2002-ci ildə referendumla majoritar sistemi, yəni parlament seçkisində fərdi şəkildə iştirakı seçib və bu sistem dünyada ən demokratik, seçicilərlə namizədlər arasında intensiv təmas yaradan sistem hesab olunur. Majoritar seçki sistemində də siyasi partiyaların rolu saxlanılır, partiyalar öz siyahıları üzrə namizədlərini dairələrdən irəli sürürlər, onların namizədləri də partiya adından seçkidə iştirak edirlər. Ona görə də, majoritar sistem siyasi partiyaların cəmiyyətdə roluna heç bir mənfi təsir göstərmir. Bu reallığı sənin kimi nankorlar anlamazlar. Çünki sən dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan rəzil Gültəkinsən. Özü də ortada qalanlardansan və bundan sonra da ortada qalacaqsan. Yazıqlar olsun sənə!!!

## Gömrük nəzarətindən gizlədilən mobil telefonlar aşkarlandı



Gömrük nəzarətindən gizlədilən mobil telefonlar aşkarlanıb. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinə daxil olan əməliyyat məlumatı əsasında Rusiya istiqamətindən "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan Azərbaycan vətəndaşının idarə etdiyi "Mercedes Benz Sprinter" markalı avtomobilə gömrük baxışı keçirilib. Yoxlama nəticəsində nəqliyyat vasitəsinin ön oturacaqlarının altındakı boşluqlarda gömrük nəzarətindən gizlədilən 7 ədəd üzərində "iPhone 11 Pro Midnight Green 64 GB" yazılan və 4 ədəd üzərində "iPhone 11 Pro Midnight Green 256 GB" yazılan mobil telefon aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

## Marketdən oğurluğa cəhd edən şəxsdən narkotik vasitələr götürülüb

Paytaxtın Nizami rayonunda B.Nuriyev küçəsində yerləşən marketlərin birindən Nizami Rayon Mühafizə İdarəsinə "Həyəcan" siqnalı daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşları dərhal həmin ünvana gəliblər. Marketdən oğurluğa cəhd edən şəxs saxlanılaraq 24-cü polis şöbəsinə təhvil verilib. Araşdırmalarla onun Bakı şəhər sakini Ş.Ramazanov olduğu müəyyən edilib. Axtarış zamanı ondan heroin və metamfetamin aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırmalar davam etdirilir.

## Gələn ildən bu avbomobillər bahalaşacaq



"AvtoVAZ" istehsalçısı bütün model cərgəsinin qiymətlərini orta hesabla 2,3 faiz qaldıracaq. SİA xəbər verir ki, ən çox qiymət artımı - 3,8 faiz - "Vesta" sedanına şamil olunacaq.

Satış üzrə lider "Qranta" ailəsinə məxsus sedanların qiyməti 2,5 faiz artırılacaq. "Lada" 4x4 avtomobillərin qiymətləri 2,9 faiz, cərgənin ən bahalı modeli "Lada Vesta Sport"un qiyməti isə 1,5 faiz qaldırılacaq. Ən az artım isə xetçbek "Lada Xray"də - 0,8 faiz olacaq. Digər avtomobil istehsalçıları qiymət artımını elan etdiklərinə görə, "AvtoVAZ"ın qiymət artımı Rusiya bazarındakı payına təsir etməyəcək. "AvtoVAZ", 2018-ci ildə montaj konveyerindən 560 mindən çox avtomobil buraxaraq Rusiyanın ən nəhəng minik avtomobili istehsalçısı olaraq qalmaqdadır. Xatırladaq ki, "AvtoVaz" qrupu "Renault-Nissan-Mitsubishi" alyansına daxildir.

## Yəməndə hərbi parada raket zərbəsi endirilib



Yəmənin Əd-Dalİə əyalətində keçirilən hərbi parad zamanı güclü partlayış baş verib. Əl-Ərəbiyə telekanalının xəbərində deyilir ki, ilkin məlumata əsasən, partlayış nəticəsində azı yeddi nəfər həlak olub. Paradın keçirildiyi yerə raket zərbəsi endirildiyi bildirilir.

# İnsanın inkişaf konsepsiyasında qlobal və regional ekoloji problem

***Qlobal rəngarənglik yalnız müxtəliflikdə və təbii şəraitin zənginliyində deyil, həm də inkişaf yollarının çoxşaxəliliyində, iqtisadi sistemlərin çoxluğunda, ölkələrin milli-mədəni və siyasi ənənələrindədir. Artıq heç kimə sirr deyil ki, bazar iqtisadiyyatı effektivliyin və ya səmərəliliyin artırılması yolu ilə əldə edilən əlavə nemətlərdən, istisnasız olaraq, hamının ədalətli və bərabər şəkildə bəhrələnməsinə zəmanət vermir.***

Həm XX əsrin 90-cı illərində yeni formalaşmaqda olan iqtisadiyyatlarda baş verən böhranlar, həm də son illərin qlobal iqtisadi-maliyyə böhran dalğaları bütün çılpaqlığı ilə nümayiş etdirmişdir ki, qloballaşmanın və iqtisadi liberallaşmanın gətirdiyi nemətlərin arasında kapital axınlarının qeyri-davamlılığı riskləri və sosial, iqtisadi, mədəni, ekoloji, mənəvi aşınma təhlükələri də gizlənmişdir. Bu cür amillərin təsiri ilə inkişaf siyasəti haqqında düşüncə obrazında köklü dəyişikliklər baş vermiş, insan inkişafı konsepsiyası kimi ictimai inkişaf paradiqmasının aktuallığı xeyli artmışdır. Məhz belə amillərin nəzərə alınması ilə sosial oriyentasiya - insan inkişafına istiqamətlənmə qlobal iqtisadi-maliyyə böhranın mənfi nəticələrinin aradan qaldırılması üçün ən əlverişli, bəlkə də ən effektiv vasitədir. Bu postulat dünyanın müxtəlif ölkələrində, nəinki böhran əleyhinə plat 3 UNDP Human Development Report, 2010, səh. 22 20 formaların hazırlanması, həm də ümummilli inkişaf strategiyalarının formalaşdırılması zamanı təkrar-təkrar öz əksini tapmışdır. İqtisadiyyatın sosial məsələlərin həllinə yönəldilməsinin, ümumiyyətlə isə, insan inkişafının aktuallığı ekoloji problemlərin kəskinləşməsi fonunda, xüsusilə, nəzərə çarpır. Qlobal və regional ekoloji problemlərin həlli "insani" iqtisadiyyata keçid olmadan mümkün deyildir. Bu tezis müasir qlobalistlərin, Roma Klubu nəzəriyyəçilərinin və digər tədqiqatçıların elmi əsərlərinə əsaslanır. Roma Klubunun ilk prezidenti olmuş Aurelio Peççeinin təbirincə desək, "insan inqilabı" insanın və müasir dünyada onun rolunun keyfiyyət baxımından yenilənməsini, o cümlədən, mədəni-maariflənmə tərəqqisini, yalnız maddi sərvətin toplanması əvəzinə, mənəvi dəyərlərə səmtləşməni, insanın yaradıcı potensialının maksimum surətdə reallaşması üçün şəraitin yaradılmasını, istehsal prosesində ekoloji prioritetlərin ön plana çəkilməsini, sosial ədalətin, siyasi və iqtisadi azadlığın ən yüksək ictimai dəyər kimi təmin edilməsini ehtiva edir. Beləliklə, zaman keçdikcə, həm qlobal miqyasda baş verən davamlı geosiyasi və iqtisadi proseslər, həm də inkişafa dair təfəkkürün və nəzəriyyələrin dinamik dəyişməsi fonunda insan inkişafı konsepsiyası daim kiçildilən, az qala unudulan, mürəkkəb riyazi formullarda nəzərə alınmayan insanı, bir daha ön plana çəkir, inkişafa və tərəqqiyə doğru bütün cəhdlərin, məhz onun naminə edildiyini təkrar yada salır. İnsan inkişafı üç komponent üzərində qurulmuşdur: 1. İnsanların rifahı, onların həqiqi azadlıqlarının artırılması, tərəqqi üçün imkanların yaradılması: insan inkişafı konsepsiyasına görə, gəlir insanların həyatında nə qədər çox vacib şərt olsa da, yeganə əhəmiyyətli məqsəd deyildir. İnsanlar uzun və sağlam ömür sürmək, onlara maraqlı olan mövzular haqqında biliklər əldə etmək, arzuladıqları peşələrə və ixtisaslara yiyələnmək, övladlarını sağlam, həyatlarından razı və firavan görmək, öz şəxsi ləyaqətini qorumaq və ailələrinin və əzizlərinin təhlükəsizliyinə əmin olmaq istəyirlər. İnkişafın məqsədi yalnız insanların gəlir səviyyəsinin yüksəldilməsi deyil, həm də onlar üçün təhsildə, səhiyyədə, ictimai qərarların qəbulunda, sahibkarlıqda, yaradıcı həyatda və digər sahələrdə imkanların genişləndirilməsidir. Amartya Sen qeyd etdiyi kimi, inkişaf nəticəsində yüksələn rifah adambaşına düşən gəlirin artan səviyyəsi ilə deyil, onların ləyaqətli hesab etdiyi həyat obrazı yaşamaq imkanları ilə ölçülməlidir. 2. Səlahiyyətlənmə və agentlik, insanların və qrupların onlar üçün dəyərli olan nəticələr uğrunda fəaliyyət imkanları: Burada, səlahiyyətlənmə imkanları dedikdə, müxtəlif resurslara ədalətli, hamı üçün qanuni və bərabər şərtlərlə çıxışın təmin edilməsi, həmçinin, belə resursların yaradılması və ya onlardan istifadə olunması üçün fəal iştirakın təmin edilməsi nəzərdə tutulur. Amartya Senin fikrincə, bir insanın imkanları təkcə onun fərdi bilik və bacarıqlarından deyil, cəmiyyətin təqdim etdiyi sosial və iqtisadi şərtlərdən də asılı olur. Ona görə də, insanın seçimlərinin genişləndirilməsi "münbit şəraitdən", yəni ölkədə mövcud olan iqtisadi, sosial və siyasi imkanlardan asılıdır. İnsanların öz talelərini qurmaq, öz həyatının istiqamətini dəyişmək bacarığı isə (Sen bunu "agentlik" adlandırır) həm səlahiyyətlənmənin, həm həqiqi azadlığın, həm də insan inkişafının kökündə durur. Səlahiyyətlənməsi geniş olan insanlar, istər ailədəki və iş yerindəki həyatlarında, istər öz icmalarında, istərsə də daha geniş miqyasda dəyişikliyin aparıcı qüvvələridir. 3. Ədalət: Burada bərabərliyin, ədalətliliyin təmin edilməsi, nəticələrin zaman keçdikcə davamlılığı, insan hüquqlarına və cəmiyyətin digər ideallarına hörmət nəzərdə tutulur.4 İnsan inkişafı paradiqmasına görə, iqtisadi inkişafın tipi və xarakterinin, nəinki gəlirlərin artımına, həm də ədalətlilik prinsiplərinin təminatına necə təsir göstərməsi mühüm və aktual məsələdir. İnsan inkişafı insanların yoxsullaşmasına, əsarətin gücləndirilməsinə və struktur bərabərsizliyə aparan proseslərin qarşısının alınmasını nəzərdə tutur. İnsanların iqtisadi və siyasi həyatda imkanlarını məhdudlaşdıran cinsi, irqi, milli, dini və sinfi mənsubiyyəti, yaşadığı yer, statusu və sair ilə əlaqədar mənfi stereotiplər, qərəzli münasibətlər və digər maneələr aradan qaldırılmalıdır ki, onlar bu sahələrdə qanuni fəaliyyət göstərərək, öz imkanlarından tam bəhrələnə bilsinlər. Bundan əlavə, bugünkü imkanlardan istifadə yalnız indiki nəsillərə deyil, gələcək nəsillərə də qismət olmalıdır. İnkişaf strategiyaları inkişaf prosesinin nəticələrinin dayanıqlığını və uzunmüddətli olmasını təmin etməlidir və gələcək nəsilləri ödəməli olacağı "borclar" yaratmamalıdır. Nəticələrin davamlılığı (dayanıqlı inkişaf) imkanların həm indiki və gələcək nəsillər arasında, həm də mövcud nəslin daxilində elə paylaşmasını nəzərə almalıdır ki, heç kəsin və ya heç bir nəslin mənafeyi naminə kimsənin mənafeyi, ehtiyacları və imkanları məhdudlaşdırılmasın. Beləliklə, ədalət yalnız son nəticələrin paylanmasındakı bərabərlik deyil, həm də imkanların bərabərliyidir. Amartya Senin irəli sürdüyü "bacarıqlar" yanaşmasına istinad edərək, qeyd olunmalıdır ki, insan inkişafı paradiqmasının konseptual quruluşu üç "nəhəngin" üzərində qurulmuşdur: insanların malik olduğu imkanları səciyyələndirən həqiqi azadlıqlar, insanların öz taleyini yaratmaq qabiliyyətinə təsir edən proses azadlıqları və davamlılığın təmin edilməsi, sosial ədalətin möhkəmləndirilməsi və insan hüquqlarının qorunması kimi baza prinsiplərinə söykənən ədalətin təminatı. Bu sahələr bir-biri ilə qarşılıqlı təsirdədir, bunlardan biri təmin edilməyincə, digərində irəliləyişin olmasına ümid etmək olmur. Həmçinin, bu sahələrin genişlənməsi, bu sahələrdə irəliləyişin əldə olunması ətraf mühitlə, təbiət və 4 UNDP Human Development Report, 2010, səh. 22 22 ekoloji durumla sıx əlaqəlidir. İnsan inkişafının bu "nəhənglər" üzərində uğurla dirçəlməsi məhdud təbii resurslardan düzgün istifadə fonunda baş verə bilər.

Azərbaycan Respublikasının qarşısında duran perspektivlər və çağırışlar milli inkişafın növbəti mərhələlərini diqtə etməkdədir. Azərbaycan özünün zəngin təbii və insan resurslarından istifadə edərək, dayanıqlı və dinamik insan inkişafını təmin etməlidir. Təhsil sistemi beynəlxalq standartlara daha da uyğunlaşdırılmalı, uşaq ölümü, ana sağlamlığı, yoluxucu xəstəliklər və ətraf mühit sahəsində Minilliyin İnkişaf Məqsədləri üzrə tədbirlər davam etdirilməlidir. İqtisadiyyatın diversifikasiyası, sahibkarlığın inkişafı, qeyri-neft sektorunda - turizm, kənd təsərrüfatı, xidmət sektoru, elmi-texniki tədqiqatlar, regionların inkişafı, informasiya texnologiyaları və digər sahələrdə islahatlar və dövlət proqramları sürətləndirilməlidir. Otlaq ərazilərin dayanıqlığının təmin olunması, səhralaşma tempinin, şoran torpaqların genişlənməsinin və meşələrin qırılmasının qarşısının alınması, biomüxtəlifliyin qorunması və zənginləşdirilməsi, çay daşqınlarına, torpaq sürüşmələrinə və başqa təbii fəlakətlərə qarşı preventiv tədbirlərin görülməsi, ekoloji risklərin mitiqasiyası, milli park və qoruqların və sahilyanı ərazilərin qorunması və sair ekoloji təşəbbüslər fəal şəkildə dəstəklənməlidir. Azərbaycan Hökuməti dəyişən beynəlxalq mühitin və qloballaşmanın tələblərindən, eləcə də, milli dövlətçiliyin gələcəyə yönəlmiş prioritetlərindən irəli gələn bu kimi çağırışları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası"nda aydın şəkildə ifadə etmiş və müvafiq milli fəaliyyət planını formalaşdırmışdır.

> "Amartya Senin fikrincə, bir insanın imkanları təkcə onun fərdi bilik və bacarıqlarından deyil, cəmiyyətin təqdim etdiyi sosial və iqtisadi şərtlərdən də asılı olur. Ona görə də, insanın seçimlərinin genişləndirilməsi "münbit şəraitdən", yəni ölkədə mövcud olan iqtisadi, sosial və siyasi imkanlardan asılıdır. İnsanların öz talelərini qurmaq, öz həyatının istiqamətini dəyişmək bacarığı isə (Sen bunu "agentlik" adlandırır) həm səlahiyyətlənmənin, həm həqiqi azadlığın, həm də insan inkişafının kökündə durur"

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 30 dekabr


## Nə üçün uşağa 12 yaşa qədər telefon vermək olmaz? 5 səbəb

Uşaqların qadjetlərdən asılı olması artıq epidemiya halını alıb. Yəqin ki, çoxları uşaqların əlindən telefonun almağın necə çətin olduğunu bilir. Uşaqlar texnikaya çox tez alışırlar. Qadjet onların əllərində olduğu müddətcə uşaq ətrafında baş verənlərə biganə qalır və əhəmiyyət vermir. Onlarla dil tapmaq çətinləşir və real həyatla əlaqələri azalır. Pediatrların bildirdiklərinə görə, görmə və danışıq qabiliyyətinin inkişaf etməsi üçün 0-3 yaş arası uşağın əqli inkişafı çox əhəmiyyətlidir.3 yaşına qədər uşaqlar valideynləri ilə daha çox ünsiyyətdə olmalıdırlar.



Statistikaya görə, müasir zamanda uşaqlar ekran qarşısında gün ərzində 6-7 saat vaxt keçirirlər. Bir çox uşaqlar artıq iki yaşından mobil qurğularla tanış olurlar və internetdən istifadə edə bilirlər. Pediatrlar 12 yaşadək uşaqlara mobil telefonlardan istifadəni qadağan etmələrinin 5 səbəbini açıqlayıblar. SİA onları təqdim edir:

1. Qadjetlərdən asılılıq

Analar xəbərlərə, seriala baxır, oyun oynayır və beləliklə də uşaqlarından uzaqlaşırlar. Buna görə də uşaq ona diqqətin kifayət qədər olmamasını texnika ilə kompensasiya edir. Beləliklə də uşaq telefondan asılı vəziyyətə düşür.

2. Şüalanma

2011-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) mobil telefonlardan ayrılan şüaların xərçəngə yol aça biləcəyini bildiriblər. Bundan əlavə uşaqların beyni və immun sistemi inkişaf etdiyinə görə zərərli təsirlərə daha həssas olurlar.

3. Baş beynin inkişafına təsir edir

Körpənin beyni ilk 2 ildə 3 dəfə böyüyür. Ətraf mühit beynin inkişafına mənfi təsir göstərə bilər.

4. Piylənmə

Bütün gün televizora baxmaq və telefonla oynamaq qidalanma rejimini pozaraq uşaqların piylənməsinə səbəb ola bilər. Elektron vasitələrdən nəzarətsiz şəkildə istifadə edən uşaqlar arasında piylənmə 30% çox müşahidə edilir.

5. Aqressivlik

Kompüter oyunlarında və televiziya verilişlərində olan qəddarlıq öz əksini real həyatda tapır. Uşaq hazır rəftar sxemi alır. Bir çox araşdırmaçılar belə qənaətə gəliblər ki, ekranda əks olunan qısamüddətli zorakılıq görüntüsü uzunmüddətli effekt verə bilər. Aqressiya özünü həmin dəqiqə deyil, uzun illə sonrası da büruzə verə bilir.

***Ceyhun Rasimoğlu***

## Nyu-Yorkda yəhudilərə hücum olub

Nyu-Yorkda Xanuka (İşıq) bayramını qeyd edən yəhudilər bıçaqla silahlanmış şəxslərin hücumuna məruz qalıblar. AZƏRTAC ABŞ KİV-lərinə istinadla xəbər verir ki, hücum nəticəsində xeyli insan xəsarət alıb. Şahidlərin ifadəsinə görə, cinayətkarlar hadisə yerindən qaçmağa müvəffəq olublar. Qeyd edək ki, Nyu-York yüz minlərlə üzvü olan ən böyük yəhudi icmasının məskunlaşdığı şəhərdir. Burada yəhudilərə qarşı bu cür hadisə bir neçə həftə öncə də baş verib.



## Pirallahıda "Yeni 2020-ci il" münasibəti ilə silsilə tədbirlər davam edir

Rayon icra hakimiyyəti ilə YAP Pirallahı rayon təşkilatı qəsəbədə yerləşən "Gənclər Parkında" bayram təşkil edib

***31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2020-ci il münasibətilə Pirallahı rayonunda silsilə tədbirlər keçirilməkdədir. Rayonun ərazisində yerləşən təhsil, səhiyyə, sənaye müəssisələrində dəyirmi masalar, müxtəlif müsabiqələr və bayram şənlikləri təşkil olunur.***




Növbəti belə bayram tədbiri rayon icra hakimiyyətinin və YAP Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə Pirallahı qəsəbəsində yerləşən "Gənclər Parkı"nda keçirilib. Xüsusi tərtibatla bəzədilmiş "Gənclər Parkı"nda bayram əhval-ruhiyyəsi hökm sürüb.



Tədbirdə çıxış edən RİH-in başçısı Vasif İmanov qeyd edib ki, 2019-cu il Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni sahələrdə əldə etdiyi mühüm uğurlarla yadda qalacaq. Bu dövrdə iqtisadiyyat yüksək templə inkişaf edib. Görülən tədbirlər, aparılan islahatlar, qeyri-neft sektorunun inkişafına verilən dəstək, onun xüsusi çəkisinin artması son nəticədə ölkənin iqtisadi və hərbi gücünü dəfələrlə artırıb.

Azərbaycanın tam müstəqil siyasət yürüdən dövlət kimi beynəlxalq aləmdə öz nüfuzunu və mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdiyini qeyd edən V.İmanov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin 2020-ci ildə də sürətlə inkişaf edəcəyinə və xalqımızın rifah halının durmadan yüksələcəyinə əminliyini ifadə edib.

Milli Məclisin V çağırış deputatı Rauf Əliyev çıxış edərək bildirib ki, 31 dekabr tarixi Azərbaycan xalqının birlik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır və dünyanın 70-dən çox ölkəsində həmvətənlərimiz tərəfindən qeyd olunur.

Pirallahı sakinlərinin böyük maraqla izlədiyi bayram tədbiri əməkdar artistlər Elnur Süleymanov, Almaz Orucova, Günel Şeyxova Müslüm Maqamayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının solistləri Nurlan Əzizbəyli, Rəvanə Qurbanova, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında konsert proqramı ilə davam edib.

Bayram tədbirinin sonunda isə, Şaxta Baba, Qar Qız və nağıl qəhrəmanları uşaqları bayram sovqatları ilə sevindiriblər.

***Rövşən***

## 10 ilin 100 ən yaxşı futbolçuları seçilib



Son 10 ilin 100 ən yaxşı futbolçusunun reytinq siyahısı açıqlanıb. SİA-nın məlumatına görə, "Give me Sport" nəşrinin dərc etdiyi siyahıda İspaniyanın "Barselona" klubunun və Arentina millisinin hucumçusu Lionel Messi ilk pillədə yer alıb. İkinci yer İtaliya "Yuventus"unun və Portuqaliya yığmasının forvardı Kriştianu Ronalduya məxsusdur. "3-lüy"ü hazırda Yaponiya "Vissel Kobe"sində çıxış edən "Barselona"nın sabiq yarımmüdafiəçisi Andres İnyesta qapayır.

Sonrakı 4 pillədə də Kataloniya təmsilçisinin keçmiş və hazırkı futbolçularından Xavi (karyerasını bitirib, hazırda Qətərin "Əl-Sədd" komandasının baş məşqçisidir), Neymar (PSJ, Fransa), Dani Alves ("San-Paulu", Braziliya) və Luis Suares yer alıb. "10-luğ"a "Real Madrid"in hazırkı oyunçularından Serxio Ramos və Luka Modriç də düşüb. Robert Levandovski ("Bavariya", Almaniya) isə onların arasında - 9-cu pillədə qərarlaşıb. Qeyd edək ki, Lionel Messi bu il karyerasında 6-cı dəfə "Qızıl top"un sahibi olub.


## ELAN

ADPU-nun Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası ixtisası üzrə I kurs magistri Abdullayeva Nərmin Namiq qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin KRT-1802B qrup tələbəsi Məmmədova Nigar Kamal qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**